RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 12 (8891) ÇƏRŞƏNBƏ, 19 yanvar 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Möhkəm təməl, sarsılmaz birlik, əbədi qardaşlıq

## Azərbaycan-Türkiyə münasibətləri gələcək nəsillər üçün strateji yol xəritəsi, əbədi və sarsılmaz mirasdır

Eyni soy-kökə, dilə, dinə, mədəniyyətə milli dəyərlər, səmimi dostluq-qardaşlıq və bir çox digər qarşılıqlı tarixi bağlara malik olan Azərbaycan-Türkiyə münasibətləri bu gün özünün ən yüksək zirvəsinə ucalıb. Strateji tərəfdaşlıq, qardaşlıq münasibətlərini yüksələn xətlə inkişaf etdirən Azərbaycan-Türkiyə əlaqələri hazırda mühüm mərhələyə qədəm qoyub.

Bunu şərtləndirən amillər hər iki ölkənin dövlət başçıları arasındakı səmimi dostluq-qardaşlıq münasibətləri, liderlərin mütəmadi xarakter daşıyan qarşılıqlı səfərləri, görüşləri, imzaladıqları mühüm strateji əhəmiyyətli sənədlər, birlikdə həyata keçirdikləri beynəlxalq transmilli layihələrdir.

Bir sözlə, Azərbaycan-Türkiyə prezidentlərinin qardaşlıq münasibətləri və qarşılıqlı etimadı regionda sülhün, təhlükəsizliyin, yüksəlişin və həmrəyliyin qarantıdır.

### Davamlı yüksələn əlaqələr, birmənalı dəstək

Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra dost və qardaş ölkə ilə bütün sahələrdə əlaqələr davamlı olaraq yüksələn xətt üzrə inkişaf edir. 1992-ci il yanvarın 14-də Türkiyə ilə diplomatik əlaqələrin yaradılması Azərbaycan tarixində əlamətdar hadisə kimi yaddaşlara yazılıb. İndi isə fərəh və iftixar hissləri ilə dostluğun-qardaşlığın 30 illik yubileyini qeyd edirik.

XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmuş Azərbaycanın ilk olaraq Türkiyə tərəfindən tanınması və sonra da diplomatik münasibətlərin qurulması əsl qardaşlıq və həmrəylik nümunəsi adlandırılır.

Atılan qəti addımlarla Azərbaycan-Türkiyə qardaşlığı və əməkdaşlığını bütün sahələr üzrə davamlı inkişaf etdirməyə nail olan Prezident İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dövlətlərarası səviyyədə olduğu kimi, şəxsi münasibətlərdə də əsl qardaşlıq nümayiş etdirmələri olduqca dəyərlidir.

İlham Əliyev müxtəlif beynəlxalq tədbirlərdə həmişə qardaş ölkəyə birmənalı dəstək verməyin əsl örnəyini nümayiş etdirib. Əliyev-Ərdoğan birliyi və həmrəyliyi, dövlət başçılarının bir-birinə “qardaşım” deyərək müraciət etmələri xalqlarımız üçün də, dünya birliyi üçün də əsl nümunədir.

Yanvarın 14-də İlham Əliyevin Rəcəb Tayyib Ərdoğana ünvanladığı məktubda qeyd edildiyi kimi, ötən dövr ərzində Azərbaycan-Türkiyə münasibətləri möhtəşəm inkişaf yolu keçib, ölkələrimiz tarixi sınaqlardan şərəflə və başıuca çıxaraq “Bir millət, iki dövlət” şüarının ruhuna sadiqliyini təsdiq edib.

İlham Əliyev Azərbaycan-Türkiyə münasibətlərini dünyada bərabəri olmayan, dostluq və qardaşlığın ən gözəl nümunəsi adlandıraraq müttəfiqliyin inkişafı və möhkəmlənməsində Rəcəb Tayyib Ərdoğanın xidmətlərinin əvəzsiz olduğunu vurğulayıb.

Azərbaycan-Türkiyə müttəfiqliyini, birliyini və qardaşlığını, bir-birinə verdiyi güclü dəstəyi dünya təkcə birlikdə reallaşdırılan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, TANAP və TAP kimi böyük iqtisadi layihələrin reallaşması, Vətən müharibəsi zamanı görməyib. İki qardaş dövlətin birliyi və müttəfiqliyi tarix boyu bütün məsələlərdə hiss olunub və hər iki ölkə mənəvi, siyasi və digər baxımdan bir-birini daim dəstəkləyib.

Ardı 3-cü səh.

# Azərbaycan xalqı tarix qarşısında, millət qarşısında xidməti olan hər bir insanı qəlbində yaşadır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Bakıda ucaldılan abidəsinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı metronun “İçərişəhər” stansiyasının qarşısındakı meydanda ucaldılan abidənin üzərindəki örtüyü götürdü.




Qeyd edək ki, Prezident İlham Əliyevin sərəncamı ilə ucaldılan abidə bürüncdəndir. Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti 2019-cu ildə heykəlin hazırlanması üzrə açıq müsabiqə elan etmişdi. Müsabiqəyə təqdim olunan layihələr arasından Xalq rəssamı Xanlar Əhmədovun layihəsi qalib seçilib. Abidənin önündə Heydər Əliyev Fondu tərəfindən Azərbaycan və ingilis dillərində hazırlanan müvafiq məlumat lövhəsi quraşdırılıb. Eyni zamanda Heydər Əliyev Fondu görmə qabiliyyətini itirmiş şəxslərin cəmiyyətə inteqrasiyasına dəstək məqsədilə lövhədə əks olunan məlumatları Brayl əlifbası ilə də təqdim edib.

Xalq rəssamı Xanlar Əhmədovu salamlayan **Prezident İlham ƏLİYEV** dedi: Çox gözəl abidədir.

**Xanlar ƏHMƏDOV:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Bir çox təkliflər var idi.

**Xanlar ƏHMƏDOV:** Bildiyiniz kimi, müsabiqə elan olundu.

**Prezident İlham ƏLİYEV:** Bilirəm, əlbəttə.

**Xanlar ƏHMƏDOV:** Bacardığımı etmişəm.

**Prezident İlham ƏLİYEV:** Yox, çox gözəldir. Necə deyərlər, həm onun əzəmətini əks etdirir, həm də memarlıq baxımından çox gözəldir və oxşatmısınız.

**Xanlar ƏHMƏDOV:** Çalışmışam, üstündə çox işləmişəm. Özü də yeri də yaxşıdır, tarixi yerdir. Tarixi İstiqlaliyyət küçəsidir.

**Prezident İlham ƏLİYEV:** Bəli, tarixi yerdir. Tarixi qala divarları. Bakının ən gözəl yerlərindən biridir. Yadımdadır, o vaxt bir neçə yer təklif edilmişdi. Mən buranı seçdim ki, onun abidəsi məhz burada olmalıdır.

**Xanlar ƏHMƏDOV:** Möhtəşəm bir yerdir.

Xatirə şəkli çəkdirildi.

**Xanlar ƏHMƏDOV:** Çox şadam ki, mənim Qarabağdakı “Güllələnmiş heykəllər” əsərimi də ikinci dəfə Siz açdınız.

**Prezident İlham ƏLİYEV:** Bəli, çox gözəl qeyd etdik. Belə işiniz çox olacaq. İndi bizim tarixi şəxsiyyətlərimizin heykəllərinin ucaldılması prosesi davam edir.

**Xanlar ƏHMƏDOV:** Biz işləmək üçün həmişə şadıq.

**Prezident İlham ƏLİYEV:** Sizi bir daha təbrik edirəm.

**Xanlar ƏHMƏDOV:** Çox sağ olun, minnətdaram.

**Prezident İlham ƏLİYEV:** Açıq müsabiqədə qalib gəlmisiniz. Bu abidə burada əbədi duracaq. Müəllifin adı burada var?

**Prezidentin köməkçisi Anar ƏLƏKBƏROV:** Əlbəttə ki, var. Həm Azərbaycan dilində, həm də ingilis dilində qeyd etmişik. Müsabiqədə 26 işdən məhz Xanlar müəllimin əsəri seçilib.

**Prezident İlham ƏLİYEV:** Bəli, bilirəm. Çox sağ olun, sizə yeni uğurlar arzulayıram.

**Xanlar ƏHMƏDOV:** Çox sağ olun.

Sonra dövlət başçısı çıxış etdi.

Bax: səh. 2

# Strateji tərəfdaşlıq əlaqələrinin perspektivləri müzakirə edilib



Yanvarın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.

Telefon söhbəti zamanı Azərbaycan-Rusiya əlaqələrinin uğurla inkişaf etdiyi qeyd olunub, strateji tərəfdaşlıq əlaqələrinin perspektivləri müzakirə edilib.

Dövlət başçıları son vaxtlar Rusiya-ABŞ arasında təmaslar, Qazaxıstanda vəziyyətin sabitləşməsi ilə bağlı məmnunluq ifadə ediblər, Ukrayna ətrafında gedən proseslər müzakirə olunub.

Azərbaycan və Rusiya prezidentləri regional təhlükəsizlik məsələləri ilə bağlı fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan taxılı həm də xarici ölkədə yetişdirəcək

Prezidentin müsahibədə aqrar sektor barədə ətraflı məlumat verməsi təsadüfi deyil. İndi dünyada kənd təsərrüfatı məhsullarına tələbat sürətlə artır.

Bunu mütəxəssislər əsasən əhalinin sürətlə artması, digər tərəfdən məhsul istehsalının azalması ilə əlaqələndirirlər. Dünya üzrə təkcə taxıl istehsalı ötən il 2020-ci ilə nisbətən 21 milyon tondan çox azalıb. Ərzaq məhsullarının qiymətinin artması isə yalnız iqtisadi deyil, həm də ciddi sosial məsələdir. Bu üzdən dünyanın bütün dövlətləri bu məsələyə ciddi yanaşırlar.



Ölkəmizdə də taxıl istehsalını artırmaq üçün tədbirlər görülür. Buğda istehsalı ilə məşğul olan fermerlərə subsidiyaların verilməsi təsadüfi deyildi.

Bax: səh. 6

# İnsan amilini önə çəkən islahatların müəllifi

Bəşəriyyətin mövcudluq tarixi göstərir ki, müxtəlif zaman və məkanlarda hər bir xalqın üzləşdiyi çətin vəziyyətdən, sınaqdan üzüağ çıxması, qarşıya qoyduğu məqsədlərə doğru inamla irəliləməsi məhz dövlət başçısının əzmi, qətiyyəti və yüksək idarəçilik keyfiyyətləri sayəsində mümkün olur.

Məhz həmin məqamlarda insanların güvəndiyi rəhbərin cəsarətli addımları və müdrik qərarları, çağırışları xalqın gələcək müqəddəratının müəyyənləşməsində mühüm rol oynayır. Dövrünün böyük şəxsiyyətləri məhz bu cür taleyüklü anlarda qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmək, insanları milli məqsədlər ətrafında səfərbər etmək, çətinliklərdən çıxış yollarını göstərmək bacarıqları sayəsində qüdrətli liderə çevrilirlər.

Bu həqiqət Azərbaycanın təcrübəsində də dəfələrlə təsdiqini tapıb: Prezident İlham Əliyev ölkəmizə rəhbərliyi, yüksək bacarıq, səriştə və qətiyyəti sayəsində son 18 ildə xalqımızı üzləşdiyi bir çox çətinlik və problemlərdən qoruyub. Dövlət başçısının idarəçilik fəaliyyətinin üstün cəhəti də məhz mövcud gerçəklikləri obyektiv şəkildə qiymətləndirməsi, milli maraqlar naminə cəsarətli addımlar atması, yaranmış ekstremal şəraitdə, fövqəladə vəziyyətlərdə optimal qərarlar qəbul etməsidir.

### Hədəfə qovuşmaq üçün seçilən düzgün yol

Həyatda hər kəsin fərqli iddia və imkanları, hədəfləri, özünəməxsus düşüncələri var. Lakin əsas məsələ məqsədə qovuşmaq üçün seçilən yolun, vasitənin ədalətli və dürüst olmasıdır. Prezident İlham Əliyev məhz Ulu Öndər Heydər Əliyevin yolunu, ali ideyalarını rəhbər tutub, hər zaman xalqının, dövlətinin mənafeyini düşünüb. İnsanların sosial rifahı, firavanlığı naminə bütün imkanları səfərbər edib.

Ardı 4-cü səh.



# Fatma Səttarova, 100 yaşın mübarək!

Azərbaycan faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib.

Artıq üzərindən 70 ildən çox bir müddət keçsə də, xalqımız hər il 9 May tarixini faşizm üzərində Qələbə günü kimi təntənəli surətdə qeyd edir. Haqqı da var. Çünki bu qələbədə yüzlərlə, minlərlə həmvətənlərimizin, Azərbaycanın mərd övladlarının böyük rolu var, onlar bu Qələbə naminə canlarından-qanlarından keçiblər, doğma Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda mərdliklə, hünərlə vuruşaraq, həm də doğma torpağımızı qoruyublar.

Ardı 6-cı səh.

◆ Dünya gündəmi

# Dünyanın koronavirus bəlası

## İşsizlik və işçi çatışmazlığı, Çində yeni qaydalar və yaşlı yunanlar üçün cərimələr...

Çində ölkə üzrə yerdəyişmə qaydaları sərtləşdirilir, hökumət vətəndaşlara xaricdən mal almamağı təklif edir. Beynəlxalq Əmək Təşkilatı məşğulluq səviyyəsinin bərpasına illərin keçəcəyini proqnozlaşdırır. Avropada isə ötən qışda demək olar ki, az rast gəlinən qrip yenidən yayılır.

Ardı 8-ci səh.



# Azərbaycan xalqı tarix qarşısında, millət qarşısında xidməti olan hər bir insanı qəlbində yaşadır

## Prezident İlham Əliyevin çıxışı





- Bir neçə dəqiqə bundan əvvəl Zeynalabdin Tağıyevin abidəsinin açılışını qeyd etdik. Abidə metronun girişinə yaxın olduğuna görə insanlara problem yaratmamaq üçün mən əziz xalqımı bu münasibətlə buradan təbrik edirəm.

Bu abidənin açılması çox əlamətdar hadisədir. 2020-ci ildə mənim tərəfimdən Zeynalabdin Tağıyevin abidəsinin ucaldılması ilə bağlı müvafiq sərəncam imzalanmışdır. Açıq müsabiqə elan edilmişdir və Xalq rəssamı, məşhur heykəltaraş Xanlar Əhmədovun işi müsabiqədə qalib gəlmişdir. Ondan sonra mənə abidənin ucaldılması üçün bir neçə yer təklif edildi və mən məhz bu yeri seçdim. Çünki Zeynalabdin Tağıyevin adına layiq olan bir yerdir, Bakının tarixi yerlərindən biridir, şəhər sakinlərinin ən sevimli yerlərindən biridir, tarixi qala divarının önündədir. Tağıyevin abidəsinin məhz bu yerdə yerləşməsinin böyük rəmzi mənası var. Çünki Zeynalabdin Tağıyev ömrü boyu Bakının inkişafına, abadlaşmasına, ümumiyyətlə, Azərbaycanın inkişafına böyük töhfələr vermişdir.

Çox zəngin adam idi, amma hər kəs bilir ki, çox kasıb ailədə böyümüşdü və sərvətini öz zəhməti hesabına qazanmışdır. Ancaq tarixdə o, zəngin adam kimi yox, məhz xeyriyyəçi kimi qalmışdır. Əgər onun xeyriyyəçilik fəaliyyəti olmasaydı, yəqin ki, o, Azərbaycan xalqının yaddaşında qalmazdı. Onun təşəbbüsü ilə Azərbaycanda bir çox önəmli layihələr həyata keçirilmişdir. Onların arasında, əlbəttə ki, Bakıya təmiz içməli suyun gətirilməsi layihəsini xüsusilə qeyd etməliyəm. Şollar su kəməri bugünə qədər fəaliyyətdədir, bugünə qədər Bakını, Sumqayıtı təmiz içməli su ilə təmin edir. Bu kəmərin tikintisi üçün Zeynalabdin Tağıyev öz vəsaitindən istifadə etmişdir. Məhz onun təşəbbüsü və maliyyə dəstəyi ilə Bakıda teatr binası inşa edilmişdir, bir çox sənaye müəssisəsi inşa edilmişdir, azərbaycanlı qızlar üçün ilk dünyəvi məktəb açılmışdır. Deyə bilərəm ki, müsəlman aləmində ilk dünyəvi məktəb məhz Bakıda azərbaycanlı qızlar üçün Tağıyevin vəsaiti və təşəbbüsü ilə yaradılmışdır. Bakıda tramvay xətlərinin açılması da Tağıyevin adı ilə bağlıdır. Bu gün Bakıya əlavə gözəllik verən, Bakının memarlığına töhfə verən bir çox gözəl binaların müəllifi, yəni ki, təşəbbüskarı məhz Tağıyev olmuşdur. Biz Bakının müxtəlif yerlərində onun memarlıq əsərlərini görə bilərik. Baxmayaraq ki, o, kasıb ailədə doğulub və o dövrün mühitində böyüyüb, amma Bakının gözəlliyini təmin etmək üçün xaricdən memarlar dəvət etməsi onun mütərəqqi fikirdə olmasından xəbər verir. Qızlar üçün məktəbin açılması gələcəyə yönəlmiş bir addımdır. Hər kəs bilir ki, o, yüzlərlə tələbəni Rusiyaya və Avropaya göndərməklə onların təhsil xərcini öz üzərinə götürmüşdür və bu da gələcəyə yönəlmiş bir addım idi, gələcəyi düşünürdü. Mən artıq bunu bir dəfə demişəm, bir daha demək istəyirəm ki, o tələbələrin arasında mənim babam Əziz Əliyev də olmuşdur. Əziz Əliyev qədim Azərbaycan torpağı olan İrəvan xanlığı ərazisində doğulmuşdur. O da Tağıyev kimi kasıb ailədən idi, oxumaq istəyirdi. Tağıyevə məktub yazmışdı, xahiş etmişdi ki, ona maddi kömək göstərilsin. Tağıyev də onu təbii ki, tanımırdı, sadəcə olaraq, bir gəncin təhsilə olan belə marağını nəzərə alaraq ona pul göndərmişdir və Əziz Əliyev bu pul hesabına o vaxt Sankt-Peterburq Hərbi Tibb Akademiyasında oxumuşdur. Hesab edirəm ki, bu hadisə onun gələcək taleyində həlledici rol oynamışdır. Çünki o, həm gözəl həkim, eyni zamanda, böyük dövlət xadimi olmuşdur. İkinci Dünya müharibəsində onu Bakıdan Dağıstana ezam etmişlər. Bir neçə il Dağıstanın rəhbəri vəzifəsində işləmişdir və dağıstanlıları sürgündən xilas etmişdir. Çünki o vaxt başqa Qafqaz xalqları ilə bərabər, dağıstanlıları da Qazaxıstana sürgün etmək istəyirdilər, sovet hökumətinin belə planları var idi. Məhz Əziz Əliyevin qətiyyətli mövqeyinə görə bu, baş vermədi. Dağıstanlılar bunu yaxşı bilirlər, yaxşı xatırlayırlar və təsadüfi deyil ki, Mahaçqalada dağıstanlıların təşəbbüsü ilə Əziz Əliyevin abidəsi ucaldılmışdır.




Zeynalabdin Tağıyev Qurani-Kərimi Azərbaycan dilinə tərcümə etdirmiş və eyni zamanda, bu sahədə də təşəbbüskar olmuşdur. İlk dəfə olaraq Qurani-Kərim Azərbaycan dilinə tərcümə edilmişdir. Onun təşəbbüsü və maliyyə vəsaiti hesabına Azərbaycanda bir çox dini abidə inşa edilmiş və təmir olunmuşdur. Onun təhsillə bağlı təşəbbüsləri təkcə Bakı ilə məhdudlaşmırdı. Eyni zamanda, Naxçıvanda, Gəncədə, Şamaxıda, Gürcüstanda azərbaycanlıların yaşadıqları bölgələrdə onun pulu hesabına məktəblər açılmışdır.

Yəni, onun haqqında çox danışmaq olar. O, böyük şəxsiyyət idi, xalqa bağlı olan, xalqı qəlbən sevən, xalqın gələcəyini düşünən bir insan idi. Onu da bildirməliyəm ki, XIX əsrdə xeyriyyəçilik ənənələrini məhz Zeynalabdin Tağıyev qoymuşdur. Bu ənənələr sovet dövründə, təbii ki, davam etmədi. Onu da bildirməliyəm ki, Azərbaycan Xalq Cümhuriyyəti süqut edəndən sonra sovet hakimiyyəti onu bütün imkanlardan məhrum etmişdir, onun bütün əmlakları əlindən alınmışdı, tək bir bağ qalmışdı, orada da o, ömrünün sonuna qədər yaşamışdır. O, uzun ömür yaşadı, dolğun ömür yaşadı. Ancaq əfsuslar olsun ki, ömrünün sonunda bu cür ədalətsizliklə üz-üzə qaldı və həyatdan çox narahat getdi.

Bu gün isə müstəqil Azərbaycanda xeyriyyəçilik ənənələri, onun qoyduğu xeyriyyəçilik ənənələri davam edir, geniş vüsət almışdır. Bildirməliyəm ki, bu sahədə ən böyük xeyriyyəçi nəinki Azərbaycanda, Cənubi Qafqazda Heydər Əliyev Fondudur. Heydər Əliyev Fondu 20 ilə yaxındır ki, yaradılmışdır və bütün bu illər ərzində fondun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir. Azərbaycanın multikultural dövlət kimi, müasir dövlət kimi dünyada tanıdılmasında Heydər Əliyev Fondunun müstəsna xidmətləri vardır. Məhz fondun fəaliyyəti nəticəsində Azərbaycan daha çox tanınır və məhz bu amil bizə İkinci Qarabağ müharibəsi dövründə kömək göstərdi. Çünki Azərbaycan xalqı yaxşı bilir ki, o vaxt erməni lobbisi və onun havadarları Azərbaycan haqqında olmazın yalanlar uydurub media məkanına atmışlar. Ancaq uzun illər ərzində Heydər Əliyev Fondunun müxtəlif ölkələrdə fəaliyyəti və Azərbaycanın müasir, mütərəqqi dövlət kimi tanıdılması bu təbliğatı alt-üst etmişdir. Bu gün Heydər Əliyev Fondu qarşısında yeni vəzifələr dayanır. Ənənəvi fəaliyyətlə yanaşı, bu gün fond azad edilmiş torpaqlarda geniş fəaliyyətə başlamışdır. Fondun təşəbbüsü ilə azad edilmiş torpaqlarda hazırda dini abidələrimizin əsaslı təmiri, bərpa edilməsi və inşası prosesinə start verilib. Şuşa şəhərində Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri, Ağdam şəhər məscidi Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa edilir, Zəngilan şəhər məscidi də həmçinin. Eyni zamanda, Daşaltıda, Hadrutda və Şuşa şəhərində yeni məscidlərin tikintisi də məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilir. Təkcə sadaladığım dini abidələrimizin sayı 8-ə bərabərdir və əminəm ki, fond digər layihələrdə də fəal iştirak edəcək. Bildiyiniz kimi, məcburi köçkünlər üçün yeni evlərin yaradılması da Heydər Əliyev Fondunun təşəbbüsü ilə geniş vüsət almışdır və mənim iştirakımla Qobu qəsəbəsində bir neçə böyük, çoxmərtəbəli evlərin inşası təmin edilmişdir.

Yəni, bu ənənələr var, davam edir, cəmiyyətdə çox yüksək qiymətləndirilir. Müharibədən sonra mənim təşəbbüsümlə Qarabağ Dirçəliş Fondu, "YAŞAT" Fondu yaradılmışdır. Azərbaycan vətəndaşları, eyni zamanda, şirkətlər könüllü olaraq həm Qarabağ Dirçəliş Fonduna, həm "YAŞAT" Fonduna vəsait təqdim edirlər və bu vəsait hesabına bu gün yüzlərlə qazi həm Azərbaycanda, həm xüsusilə xaricdə müalicə alır, həyata qayıdır, öz sağlamlığını bərpa edir. Bu, bir daha onu göstərir ki, xeyriyyəçilik hər zaman Azərbaycan xalqının ayrılmaz əlaməti olubdur. Sadəcə olaraq, buna şərait yaradılmalı idi, dövlət tərəfindən bu siyasət dəstəklənməli idi və bu gün biz bunu görürük.

Mən Zeynalabdin Tağıyevin şəxsiyyətinə həmişə böyük hörmətlə yanaşmışam. Hələ 2000-ci illərin əvvəllərində, - mən hələ Prezident deyildim, - onun qəbrinin yerləşdiyi Pirhəsən ziyarətgahı mənim təşəbbüsümlə abadlaşdırıldı və qəbrin ətrafında olan ərazi yeni görkəm aldı. Prezident seçiləndən sonra dərhal mənim təşəbbüsümlə onun evi, hazırda Tarix Muzeyinin binası əsaslı təmir edildi, həm onun yaşadığı evin bir hissəsi muzey kimi qaldı, eyni zamanda, Tarix Muzeyində bizim tariximizin müxtəlif dövrlərini əhatə edən eksponatlar nümayiş etdirilir.

Bu gün mən çox şadam ki, Zeynalabdin Tağıyevin abidəsi Bakıda ucaldılıb. O, buna layiq idi. Azərbaycan xalqı qarşısında, tarix qarşısında, millət qarşısında xidməti olan hər bir insanı Azərbaycan xalqı öz qəlbində yaşadır.

Bir daha əziz xalqımı bu münasibətlə ürəkdən təbrik etmək istəyirəm, Azərbaycan xalqına yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

---

## R.Ş.Rzayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Rövşən Şükür oğlu Rzayev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 yanvar 2022-ci il*

---

## Şuşaya gedən avtobusa minik başlanır

"Yanvarın 24-dən Bakı-Şuşa, Bakı-Ağdam, Əhmədbəyli-Şuşa, Füzuli Beynəlxalq Hava Limanı-Şuşa, Bərdə-Ağdam istiqamətlərində şəhərlərarası müntəzəm avtobus marşrutları istifadəyə veriləcək".

Bu sözləri Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi Anar Rzayev deyib. O bildirib ki, artıq hər bir marşrut üzrə sınaq səfərləri həyata keçirilib, istismar ediləcək avtobusların sinifləri müəyyən olunub. Reyslər Əhmədbəyli-Şuşa marşrutu üzrə həftədə 4 dəfə, digər istiqamətlər üzrə isə 2 dəfə olmaqla təşkil ediləcək. Füzuli Beynəlxalq Hava Limanı-Şuşa avtobus marşrutunun fəaliyyəti təyyarə aviareyslər ilə uzlaşdırılacaq.

---

## Baş nazir Əli Əsədovun sədrliyi ilə Azərbaycanda ərzaq təhlükəsizliyi, qiymət artımı və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib

Yanvarın 18-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə ölkədə ərzaq təhlükəsizliyi, qiymət artımı və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müşavirəni giriş sözü ilə açan Ə.Əsədov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə 2021-ci ildə həyata keçirilən siyasət nəticəsində ölkəmizdə sosial-iqtisadi inkişaf meyilləri davam etdirilib, pandemiyanın milli iqtisadiyyata mənfi təsirləri minimuma endirilib.

2021-ci ilin makroiqtisadi göstəricilərinə nəzər salan Baş nazir ümumi daxili məhsulun 5,6 faiz artdığını, onun həcminin 92,8 milyard manat təşkil etdiyini bildirib. Vurğulanıb ki, qeyri-neft sektoru üzrə artım 7,2 faiz olub, sənaye istehsalı 5,2 faiz, qeyri-neft sənayesi isə 18,9 faiz artıb.

Ölkənin strateji valyuta ehtiyatlarının 2,5 milyard dollara yaxın artaraq 53,2 milyard dolları ötdüyü və xarici dövlət borcunu 6 dəfədən çox üstələdiyi bildirilib. Bütövlükdə 2021-ci ildə ölkədə makroiqtisadi və maliyyə sabitliyi təmin olunub.

Qeyd edilib ki, bununla belə, orta illik inflyasiya 6,7 faiz, o cümlədən ərzaq inflyasiyası 8,1 faiz, qeyri-ərzaq inflyasiyası 5,1 faiz təşkil edib. İnflyasiyanın illik səviyyəsi 12 faiz olub.

Bütövlükdə qlobal istiləşmə və quraqlıq, dəyər zəncirinin qırılması və tələb-təklif arasında balansın pozulması, habelə daşınma-logistika xərclərinin artması və enerji daşıyıcılarının sürətlə bahalaşması qlobal bahalaşmanı şərtləndirən əsas amillərdir.



Bildirilib ki, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə, 2021-ci ildə dünyada ərzaq qiymətləri son 10 ilin ən yüksək səviyyəsinə çatıb.

Dünyada ərzaq qiymətlərinin yüksəlməkdə davam etməsi ilə dünyanın əksər ölkələrində, o cümlədən Azərbaycanın əsas ticarət tərəfdaşlarında inflyasiya təzyiqləri yüksəlib.

Diqqətə çatdırılıb ki, qlobal iqtisadiyyata inteqrasiya etmiş Azərbaycanda da yerli istehsalı az olan və ya idxalın üstünlük təşkil etdiyi məhsullar üzrə qiymət artımları müşahidə olunur.

İnflyasiyanın formalaşmasında ərzaq məhsullarının payı yüksək olub. Ümumi inflyasiyanın təqribən 60 faizi ərzaq inflyasiyasının payına düşür.

Belə ki, kənd təsərrüfatı və ərzaq idxalımız 2,1 milyard dollar olmaqla ümumi idxalın 18 faizini təşkil edir. 2021-ci ildə inflyasiyanın xarici amilləri əhəmiyyətli dərəcədə aktivləşib və Azərbaycanda xarici mənşəli ərzaq inflyasiyasının təsiri çox olub.

Dünya bazarlarında taxılın qiymətində 2021-ci ilin dekabr ayında son iki ilə nəzərən 45 faizdən çox artım baş verib. Belə ki, 2021-ci ilin yanvarından başlayaraq idxal buğdasının bir tonu üçün qiymət 253 dollardan dekabr ayında 340 dollara qədər artıb.

Ötən il ərzaqlıq buğdanın dünya üzrə kəskin bahalaşmasının Azərbaycana təsirinin azaldılması məqsədilə hökumət tərəfindən həyata keçirilən tədbirlər barədə danışan Baş nazir daxili bazarda satılan un və un məmulatlarının hər tonu üçün subsidiya məbləğinin artırıldığını, buğdanın idxalı və satışının, buğda ununun və çörəyin istehsalı və satışının ƏDV-dən azad edilməsinin 2024-cü ilədək uzadıldığını, iri taxıl idxalatçılarına Mərkəzi Bankın vəsaitləri hesabına çox aşağı faizli kreditlərin ayrıldığını bildirib.

Vurğulanıb ki, təbii olaraq bütün görülmüş kompleks tədbirlərə baxmayaraq, buğda və unun qiymətlərinin real qiymətlərdən uzunmüddətli dövrdə belə aşağı səviyyədə saxlanılması çətin məsələ idi və nəticədə unun və çörəyin qiyməti artıb.

Bazar prinsiplərinə uyğun un və çörəyin hazırkı qiymət səviyyəsindən kənar süni qiymət artımı ilə əlaqədar bütün qabaqlayıcı tədbirlərin görüldüyü vurğulanıb.

Bununla əlaqədar İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən nəzarət tədbirlərinin daha da gücləndirildiyi, respublikanın 68 şəhər və rayonu üzrə unun satışı, çörəyin çəki və qiymətinə gündəlik ciddi monitorinqlərin aparıldığı diqqətə çatdırılıb.

Qlobal ərzaq bazarlarında əsas məhsullar üzrə qiymətlərdə müşahidə edilən bahalaşmanı nəzərə alaraq ölkənin ərzaq təminatı və ərzaq təhlükəsizliyi məsələlərinə, idxaldan asılılıq səviyyəsinin azaldılmasına xüsusi diqqət yetirilir.

Eyni zamanda, işğaldan azad edilmiş torpaqların kənd təsərrüfatı potensialının ölkəmizin iqtisadi inkişafı üçün mühüm əhəmiyyət daşıdığı bildirilib. Diqqətə çatdırılıb ki, dövlət başçısının tapşırığına uyğun olaraq, azad edilmiş torpaqların təxminən 100 min hektarında əkin işlərinin aparılması ərzaq təhlükəsizliyini, həm də kənd təsərrüfatı emalı üzrə fəaliyyət sahələrinin yaradılması bu sektorda artımı dəstəkləyəcək.

Bildirilib ki, kənd təsərrüfatı sahəsində əsas prioritet keyfiyyət dəyişikliyinə nail olunması, məhsuldarlıq və səmərəliliyin artırılması olmalıdır.

Taxıl-buğda istehsalında məhsuldarlığın artırılması, onun tədarükündə daxili tələbata yönələn hissənin keyfiyyətinin artırılması, nəticəyönümlü subsidiyaların verilməsi istiqamətində tədbirlər görülməlidir.

Vurğulanıb ki, əhalinin həyat səviyyəsinin və ərzaqla etibarlı təminatının bazarların səmərəli fəaliyyətindən bilavasitə asılı olduğunu nəzərə alaraq ərzaq bazarının səmərəli təşkili və tənzimlənməsi daim diqqət mərkəzində olmalıdır.

Kənd təsərrüfatı məhsulları istehsalını artırmaqla ərzaq bazarında tələb və təklifin tarazlaşdırılmasına, özünütəminetmə səviyyəsinin artırılmasına nail olunmasının vacibliyi vurğulanıb. Daxili istehsal imkanları əhalinin əsas ərzaq məhsullarına tələbatını ödəmək iqtidarında olmalıdır.

Xüsusi vurğulanıb ki, haqsız rəqabət, bazar sövdələşməsi, qiymətlərin süni artırılması hallarında dövlət qurumları inzibati rıçaqlardan istifadə etməklə möhtəkirlik hallarının qarşısını qətiyyətlə almalı, istehlak bazarına antiinhisar nəzarəti gücləndirilməlidir.

Diqqətə çatdırılıb ki, çevik və kompleks antiinflyasiya proqramı qısamüddətli dövrdə inflyasiyanın amillərini nəzarətdə saxlamağa imkan verə bilər.

Aidiyyəti dövlət qurumlarına qısa müddət ərzində "Antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında" Tədbirlər Planı barədə təkliflərini hökumətə təqdim etmələri tapşırılıb.

Müşavirədə, həmçinin iqtisadiyyat naziri Mikayıl Cabbarovun, kənd təsərrüfatı naziri İnam Kərimovun və Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevin məruzələri dinlənilib, gündəlikdə duran məsələlərə dair geniş müzakirələr aparılıb.



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

# Möhkəm təməl, sarsılmaz birlik, əbədi qardaşlıq

## Azərbaycan-Türkiyə münasibətləri gələcək nəsillər üçün strateji yol xəritəsi, əbədi və sarsılmaz mirasdır



Əvvəli 1-ci səh.

### Qürur dolu tarixi günlər

Azərbaycan ilə Türkiyə arasında əlaqələrin ən yüksək səviyyədə olması bütün dünyaya bəllidir. 44 günlük Vətən müharibəsi isə bunun bariz təcəssümü oldu.

Vətən müharibəsinin ilk günlərindən qardaş Türkiyə Azərbaycana siyasi-mənəvi dəstək verdi. Rəcəb Tayyib Ərdoğan açıq və birmənalı bəyanatlar səsləndirərək, bu müharibədə Azərbaycanın tək olmadığını, Türkiyənin hər zaman dövlətimizin və xalqımızın yanında olduğunu bildirdi. Bu da təbii olaraq gücümüzə güc qatmaqla əldə etdiyimiz möhtəşəm tarixi qələbənin qazanılmasında mühüm rol oynadı.

İlham Əliyev dostuna ünvanladığı məktubda bu məsələyə xüsusi toxunaraq qeyd edib ki, Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı hər zaman ortaya qoyduğu qəti və birmənalı mövqe, haqq işimizə verdiyi tərəddüdsüz dəstək bizi daim ruhlandırır və əlavə güc verirdi: "Azərbaycan xalqı 44 günlük Vətən müharibəsinin ilk saatlarından son dəqiqələrinə qədər şəxsən Sizin, Türkiyə Respublikasının, qardaş xalqımızın nümayiş etdirdiyi mənəvi dəstəyi, həmrəyliyi heç zaman unutmayacaq. Bu gün də işğaldan azad edilmiş torpaqların əsaslı yenidənqurulması və bərpası işlərində Türkiyə ilə çiyin-çiyinə bir yerdə irəliləməyimiz böyük məmnunluq doğurur. Biz də öz növbəmizdə hər zaman bütün məsələlərdə qardaş Türkiyənin yanında olmağa davam edəcəyik".

Göründüyü kimi, Azərbaycan-Türkiyə əlaqələri daim yüksəlişdədir. Liderlər isə bu əlaqələri daha da şaxələndirirlər. Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının toplantılarında qəbul edilən qərarlar iki ölkənin iqtisadi-ticari əlaqələrinin daha da genişlənməsinə böyük töhfələr verir.

### Qarabağa ayaq basan ilk xarici ölkə Prezidenti

Bütün zamanlarda liderlərin görüşü, qarşılıqlı rəsmi səfərləri hər iki ölkədə böyük təntənə ilə qarşılanır və bu səfərlərin hər birində iki dost-qardaş ölkə arasında bütün sahələr üzrə sıx əməkdaşlıq daha da möhkəmlənir.

Ötən il Türkiyə Prezidentinin Azərbaycana 3 səfəri və xüsusilə də Rəcəb Tayyib Ərdoğanın Qarabağa ayaq basan ilk Türkiyə lideri olması tarixə yeni səhifə kimi yazıldı.

Keçən il tarixi bir gündə - 15 İyun Milli Qurtuluş Günü Qarabağa ilk səfərini edən Türkiyə Prezidentini İlham Əliyev Füzulidə qarşıladı. İki qardaş birlikdə Şuşaya səfər etdi, təkbətək görüşdən sonra "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzaladılar. Liderlər mətbuata birgə bəyanatlarla çıxış etdilər. Bu, mətbuata yox, əslində, dünyaya verilən bəyanat idi. Belə ki, Azərbaycan-Türkiyə qardaşlığının Şuşa zirvəsindən verilən mesajları hər kəs eşitdi.

İlham Əliyev Rəcəb Tayyib Ərdoğana ünvanladığı məktubda həmin günü belə qiymətləndirir: "Türk dünyasının qədim mədəniyyət mərkəzi olan Şuşa şəhərində müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalanması sarsılmaz birliyimizi bir daha təsdiq edən mühüm tarixi addım idi. Bu sənəd Azərbaycan-Türkiyə əlaqələrinin inkişafının konseptual istiqamətlərini müəyyən edərək, gələcək müştərək müvəffəqiyyətlərimizə yol açan yeni mərhələnin əsasını qoymuşdur".

Şuşaya səfəri çərçivəsində Rəcəb Tayyib Ərdoğan Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin heykəllərini ziyarət edib, "Xan qızı" bulağında olub, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı musiqili kompozisiyaya tamaşa edib.

### Çiyin-çiyinə irəliləyən, yeni tarix yazan liderlər

Müharibədən sonrakı dövr regionda əməkdaşlıq, qarşılıqlı ticarət, kommunikasiyaların açılması, yeni nəqliyyat dəhlizlərinin yaradılması üçün imkanlar yaratdı. Xüsusilə Zəngəzur dəhlizinin açılması Azərbaycanın logistik imkanlarının daha daha da artmasına real zəmin yaradacaq. Artıq bu istiqamətdə xeyli işlər görülüb.

Dəhlizin açılması istiqamətində reallaşan tarixi layihələrin təməlqoyma mərasimlərində Türkiyə Prezidentinin iştirakı Azərbaycana əlavə stimul vermiş oldu. Oktyabrın 26-da Azərbaycana rəsmi səfər edən Rəcəb Tayyib Ərdoğan İlham Əliyevlə birgə "Qarabağın hava qapısı" adlandırılan Füzuli Beynəlxalq Hava Limanının açılışını etdilər.

Bu, ilk növbədə, Azərbaycanın qüdrətinin göstəricisi idi. Çünki İlham Əliyevin şəxsən mütəmadi olaraq maraqlandığı bu obyekt cəmi 8 aya inşa edilmişdi. Prezidentlər həmçinin Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış olub Zəngilana yollandılar. Burada prezidentlər Zəngəzur dəhlizinin Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun, "Dost Aqropark"ın təməlini qoydular və Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış oldular.

Prezidentlər bir daha mətbuata bəyanatlarla çıxış edib Azərbaycan-Türkiyə münasibətlərinin sarsılmaz bağlarla daha da möhkəmləndiyini dünyaya bəyan etdilər.

İlham Əliyev dedi ki, Füzuli Beynəlxalq Hava Limanının açılışında birlikdə iştirak bir daha birlik və gücümüzü göstərir: "Bizim birgə addımlarımız tarixdə əbədi qalacaq. Bu tarixi biz birlikdə yazırıq. Necə ki, bütün müharibə dövrü ərzində birlikdə idik, bu gün də bir yerdəyik".

Prezident Zəngəzur dəhlizinin açılmasını da dəyərləndirərək bildirdi ki, Zəngilan Şərqi Zəngəzur bölgəsində yerləşir və buradan keçən Zəngəzur dəhlizi bütün Türk dünyasını birləşdirəcək. Həm Azərbaycan, həm Türkiyə Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli addımlar atır. Bu addımlar yaxın gələcəkdə öz bəhrəsini verəcək.

Rəcəb Tayyib Ərdoğan isə dedi ki, Azərbaycan bütün dünyaya örnək olacaq inkişaf modeli ilə bu bölgənin inkişafı üçün fəaliyyətini davam etdirir: "Gün gələcək Zəngəzurdan çıxıb İstanbula qədər gedə biləcəyik, İğdıra, Qarsa gedə biləcəyik və bölgənin tranzit, logistika mərkəzinə çevrilmə imkanı möhkəmlənəcək".

Qürurverici haldır ki, Türkiyə-Azərbaycan birliyi, dostluğu və qardaşlığı bu gün də uğurla davam edir, xalqlarımız arasındakı saf, səmimi və doğma münasibətlər daha da dərinləşərək yeni mərhələyə qədəm qoyur. Bütün bunlar onu göstərir ki, əbədi və əzəli Azərbaycan-Türkiyə birliyi, dostluğu və qardaşlığı sarsılmazdır və daim belə də olacaq.

**_Rəşad BAXŞƏLİYEV,_**
**_"Azərbaycan"_**

# Gənclərə böyük etimad və qayğı göstərilir

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti bu gün uğurla davam etdirilir. Azərbaycanın ilbəil artan iqtisadi qüdrəti gənclərin fiziki, intellektual və mənəvi inkişafının təmin olunması, sosial problemlərinin həlli, innovativ ideya və təşəbbüslərinin dəstəklənməsi, bilik və bacarıqlarının üzə çıxarılması istiqamətində daha təsirli tədbirlər görməyə, irimiqyaslı proqram və layihələr reallaşdırmağa imkan verir.

Təqdirəlayiq haldır ki, bu gün cəmiyyətin ən fəal hissəsi olan gənclər respublikamızın sosial-iqtisadi və ictimai-siyasi həyatında yaxından iştirak edirlər. Onlar elm, təhsil, mədəniyyət, idman və hərbi quruculuq sahəsində uğurlar qazanaraq Azərbaycanın dünyada tanıdılmasına, Vətənimizin müdafiəsinə, ərazi bütövlüyümüz və dövlət müstəqilliyimizin möhkəmləndirilməsinə layiqli töhfələrini verirlər.

Dövlət gənclər siyasəti ötən illərdə olduğu kimi, 2021-ci ildə də uğurla davam etdirilib. Ümummilli Liderin müəyyənləşdirdiyi prinsiplər əsasında Prezident İlham Əliyevin fərman və sərəncamlarının tələbi və tövsiyələri istiqamətində milli dəyərlərə bağlı sağlam, mənəviyyatlı və vətənpərvər Azərbaycan gəncliyi formalaşdırılır. Bunun bariz nümunəsi 2016-cı il Aprel döyüşlərində daha aydın göründü. Həmin ayın 2-də Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Silahlı Qüvvələrimiz sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2 min hektardan çox hissəsini düşməndən təmizlədi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Ordumuz dördgünlük Aprel döyüşləri ilə xalqımıza qələbə sevincini yaşatdı. Bu sevincin daha böyük yaşantısı xalqa 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsində Zəfər qələbəsi ilə başa çatan İkinci Qarabağ savaşında nəsib oldu. Belə ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun qətiyyəti, gənc hərbçilərimizin fədakarlığı ilə sentyabrın 27-də işğalçı Ermənistana qarşı başlanan əks-hücum əməliyyatı nəticəsində 30 il işğal altında saxlanılan əzəli-əbədi torpaqlarımız azadlığa qovuşdu. Azərbaycan gəncliyindən formalaşmış Silahlı Qüvvələrimiz bu savaşla təkcə işğalçı Ermənistan dövlətini deyil, həm də insanlığa qənim kəsilən faşizmi məğlubiyyətə uğradaraq dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. Azərbaycan gəncləri döyüş meydanında Ermənistanın "güclü, məğlubedilməz" ordu mifini birdəfəlik darmadağın etdi. Onu da qeyd edək ki, İkinci Qarabağ savaşında döyüşənlərin əksəriyyəti Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə dünyaya göz açmış, boya-başa çatmış, həqiqi hərbi xidmətdə olan, hətta könüllü olaraq döyüşlərə qatılmış vətənpərvər gənclər idi. Bu həmrəylik, milli birlik, vahid amal uğrunda mübarizə ordumuza əlavə güc verdi ki, bəzi mənfur xarici dairələr Azərbaycanda öz çirkin planlarını həyata keçirə bilməsinlər.

Prezident İlham Əliyev çıxışlarının birində deyib ki, təkcə silahlarla müharibəni qazanmaq mümkün deyil: "Bayrağı qaldıran, bayrağı düşmənin mövqeyinə sancan, azad edilmiş torpaqlara sancan əsgərdir, zabitdir. Bizim əsgər və zabitlərimiz aslan kimi vuruşdular. Şəhidlər verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların valideynlərinə Allah səbir versin! Yaralı hərbçilərimiz var, onlar da sağalırlar. Onların bir çoxu artıq sağalıb. Allah onlara şəfa versin! Biz qəhrəman əsgər və zabitlərimizin hesabına qələbə qazanmışıq. Təkcə Şuşanın azad edilməsi əməliyyatı əminəm ki, tarixdə əbədi qalacaq. Demək olar ki, yüngül silahlarla dərədən, meşələrdən, dağlardan keçərək əlbəyaxa döyüşdə düşməni məhv etdik, Qarabağın tacı olan Şuşanı azad etdik".

Böyük qürur hissi ilə xatırlamalıyıq ki, bütün bunlar Prezident İlham Əliyevin 2021-ci il 18 avqust tarixli "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" barədə sərəncamından irəli gələn reallıqlardır. Strategiyada Azərbaycan gəncliyinin çağırış və hədəfləri qloballaşma ilə əlaqədardır. Bu, gənclərin ümumbəşəri dəyərlərə yiyələnməsini, informasiya cəmiyyətində yaşamaq bacarıqlarının artırılmasını, müxtəlif ölkələrin gəncləri ilə dostluq və əməkdaşlıq münasibətlərinin yaradılmasını, beynəlxalq gənclər hərəkatında iştirakını nəzərdə tutur. Daxili çağırışlar isə fərdi və ictimai əmin-amanlığı təmin etmək məqsədilə mövcud sosial-iqtisadi imkanlardan gənclərin potensialını gücləndirmək, cavabdehliyini yüksəltmək üçün səmərəli istifadə olunmasını nəzərdə tutur. Azərbaycanda yeniyetmə və gənclər arasında vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsini, hərbi hazırlığın müasir tələblərə uyğun təşkilini, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində daha təsirli tədbirlərin görülməsini zəruri edir.

Strategiyanın məqsədi 2015-2025-ci illəri əhatə edən müddətdə Azərbaycan gəncliyinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək, həmin potensialdan Azərbaycan Respublikasının mənafeləri naminə istifadə etmək, yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırmaqdır. Bunun üçün çoxşaxəli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Yeni strategiya növbəti illərdə gənclər siyasətinin məqsədlərini, vəzifələrini və icra mexanizmlərini müəyyən edir. Bütün bunların yerinə yetirilməsi isə indiyədək qazanılmış nailiyyətlərin daha da möhkəmləndirilməsini və davamlı inkişafını təmin edəcək. Bu mənada "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" gənclər siyasətində yeni mərhələnin başlanmasından xəbər verir.

Ötən 19 ildə gənc nəslin mənəvi-ideoloji tərbiyəsinə, onların sağlamlığının qorunmasına xüsusi qayğı ilə yanaşılıb. Azərbaycanın qüdrətli dövlətə çevrilməsi naminə gənclərin imkanlarından daha dolğun istifadə edilməsi, bunun üçün əlverişli şəraitin yaradılması gənclər siyasətinin əsasını təşkil edib. Böyüməkdə olan nəslin fiziki, sosial və mənəvi inkişafını təmin edən fəaliyyət sahələrinin genişləndirilməsi, gənclərin bəşəri dəyərlərə yiyələnmələri və digər bu kimi vəzifələr layiqincə icra olunub.

Neft gəlirlərini insan kapitalına çevirməyi qarşıya mühüm vəzifə qoyan dövlət başçısı "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı"nı təsdiqləmişdi. 2007-ci ili ölkədə "Gənclər ili" elan etməklə onların inkişafına nə qədər böyük önəm verdiyini ortaya qoymuşdu. "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının qəbul edilməsi dövlət başçısının "Bugünkü gənc sabah ölkəmizi idarə edəcək" tezisindən irəli gələrək gənclərə etimad və münasibətinin əyani təzahürü oldu.

"Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında" Prezident İlham Əliyevin 30 sentyabr 2021-ci il tarixli sərəncamı ictimaiyyət tərəfindən məmnunluqla qarşılanmışdır. "Qara qızıl"ın insan kapitalına çevrilməsi strategiyası təhsillə əhatənin və ona əlçatanlığın artmasına, bu çərçivədə gənclərin qabaqcıl xarici təhsilə cəlbinin müxtəlif proqramlarla dəstəklənməsinə mühüm imkanlar yaratmışdır.

Postpandemiya və yeni strateji dövrün çağırışları, həmçinin milli inkişaf məqsədlərimiz nəzərə alınmaqla, ölkənin rəqabət və inkişaf sahəsində sürətlə irəliləməsi üçün yüksək intellekt cəmiyyətin əsas güc mənbəyinə çevrilməli, yenilikçi təbəqənin iqtisadi fəallıq və idarəçilikdə rolu möhkəmləndirilməlidir. Bu məqsədlə Azərbaycan gənclərinin ehtiyac duyulan istiqamətlər üzrə qabaqcıl xarici ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində təhsil alması davamlı olmalıdır. Dövlətimiz bu istiqamətdə də uğurlu addımlar atır.

Gənclərə göstərilən qayğı onlarda vətənpərvərlik hissini gücləndirir, xalqa və vətənə xidmətdə ən ülvi duyğular yaradır. Bu mənada dövlət başçısının "2020-2021-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında" sərəncamı ictimaiyyət tərəfindən yüksək dəyərləndirilmişdir. Bu sərəncamla adları "Prezident təqaüdçüsü" sırasında görünən gənclər və onların valideynləri bu təqaüdün məhz Prezident İlham Əliyevin adı ilə bağlı olduğundan sonsuz qürur və şərəf duyurlar.

Ötən ilin uğurlu yekunları sırasında ölkə başçısının fevralın 2-də "2021-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında" sərəncamı da ictimaiyyətdə rəğbət doğurmuşdur. Sərəncama əsasən respublikamızın elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən şəxslər 2021-ci il Gənclər üçün Prezident mükafatlarına layiq görülmüşlər.

Yola saldığımız 2021-ci ilə nəzər saldıqda Azərbaycan Prezidentinin ölkə gənclərinin sosial şəraitinin yaxşılaşmasına, sağlamlıqlarının qorunmasına, təhsil almalarına münbit şərait yaradılmasına xidmət edən neçə-neçə belə sərəncam və fərmanlar imzaladığının şahidi oluruq. Görünən odur ki, Azərbaycanda gənc nəslin problemlərinin kompleks həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakı üçün dövlət səviyyəsində bütün addımlar atılır və gələcəkdə də lazımi işlər görüləcəkdir. Məsuliyyəti artan gənclik isə bu diqqət və qayğını yüksək qiymətləndirir, ölkəmizin inkişafına, beynəlxalq aləmdə nüfuzunun daha da artmasına və qarşıya qoyulan vəzifələrin real həyata vəsiqə qazanmasına öz töhfələrini verir.

**_Rəhman SALMANLI,_**
**_"Azərbaycan"_**

# Dostluğa və tərəfdaşlığa söykənən münasibətlər

## Azərbaycan-Ukrayna əlaqələrinin inkişafı dinamik xarakter daşıyır

Prezident İlham Əliyev 2022-ci ildə ilk xarici səfərini Ukraynaya etdi. İşgüzar xarakter daşıyan bu səfər iki dövlət arasındakı əlaqələrin inkişafı ilə bağlı məhsuldar müzakirələr və 6 sənədin imzalanması ilə əlamətdar oldu. Bütün bunlar göstərir ki, onsuz da yüksək səviyyədə olan Azərbaycan-Ukrayna münasibətlərində yeni səhifə açılır.

### Geniş spektri əhatə edən əməkdaşlıq

Azərbaycanla Şərqi Avropanın böyük dövlətlərindən olan Ukrayna arasında yüksək siyasi, iqtisadi əlaqələrlə yanaşı, tarixi ənənələrə, qarşılıqlı anlaşmaya əsaslanan etimadlı münasibətlər mövcuddur. Təsadüfi deyil ki, iki xalq arasında daim dostluq münasibətləri hökm sürüb.

Ötən əsrin sonlarında hər iki dövlət müstəqilliklərini bərpa etdikdən sonra əlaqələr yeni müstəvidə inkişaf edib. Təbii ki, əlaqələrin inkişafında hələ sovet dövründə formalaşmış ənənəvi münasibətlərin böyük rolu var. Ona görə SSRİnin dağılmasından sonra həm Azərbaycan, həm də Ukrayna üçün ağır sosial-iqtisadi çətinliklərin meydana çıxmasına baxmayaraq, bu ölkələr qarşılıqlı işgüzar əməkdaşlıq ənənəsini qoruyub saxlaya bildilər. Sonrakı dövrdə çoxtərəfli qarşılıqlı əməkdaşlıq nəticəsində Ukrayna Azərbaycanın yaxın tərəfdaşına çevrilib. İki dövlət arasında dəniz və quru sərhədlərinin olmamasına baxmayaraq, tərəfdaşlıq münasibətləri durmadan genişlənib.

Hazırda iki ölkə arasında münasibətlərin beynəlxalq əməkdaşlıqdan tutmuş iqtisadi və hərbi sahələrə qədər geniş spektri əhatə etməsi, müxtəlif sahələrdə yüzdən artıq sənədin imzalanması da bunu təsdiq edir.

İki dövlət arasında əlaqələr həm də strateji tərəfdaşlığa əsaslanır. Hələ 2008-ci ildə Prezident İlham Əliyevin Ukraynaya rəsmi səfəri zamanı "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamə" imzalanıb. Azərbaycan ilə Ukrayna arasında münasibətlərin strateji olması, bu əməkdaşlığın dostluq, səmimiyyət üzərində qurulması həm də ötən il rəsmi Kiyevin qəbul etdiyi daha bir sənəddə öz əksini tapıb. Belə ki, Ukrayna Prezidenti Volodimir Zelenskinin imzası ilə 2021-ci il avqustun 27-də qüvvəyə minən "Ukraynanın xarici siyasət strategiyası haqqında" sənəddə Azərbaycan ilə əməkdaşlığın vacibliyi qeyd olunub. Vurğulanıb ki, Ukraynanın Azərbaycan ilə strateji tərəfdaşlığı regionda sülhün və sabitliyin qarantıdır. Ukrayna enerji sahəsində Azərbaycanla əlaqələrin daha da dərinləşməsində, ölkəsinin sahibkarlarının Azərbaycanda iri layihələr həyata keçirməsində maraqlıdır. Sənəddə həmçinin qeyd olunub ki, Ukrayna Azərbaycan ərazisindəki uzunmüddətli münaqişələrin beynəlxalq hüququn prinsipləri, ilk növbədə, ərazi bütövlüyü və suverenliyə hörmət əsasında həlli üçün beynəlxalq səylərə fəal dəstək verəcək.

### İlham ƏLİYEV: "Bizim aramızda yüksəksəviyyəli siyasi dialoq aparılır"

Prezident İlham Əliyevin Ukraynaya səfəri iki dövlət arasında indiyədək formalaşmış möhkəm siyasi-iqtisadi münasibətlərdən yaranan əhvali-ruhiyyə şəraitində keçdi. Siyasət, iqtisadiyyat və təhlükəsizlik sahəsində fikir mübadiləsi dövlət başçıları arasında müzakirələrin əsas istiqamətlərini təşkil etdi. "Mən çox şadam ki, Ukrayna-Azərbaycan əlaqələrində çox ciddi irəliləyiş var. Bizim aramızda yüksəksəviyyəli siyasi dialoq aparılır. Biz Prezident Zelenski ilə keçən ay, düz bir ay bundan əvvəl Brüsseldə görüşmüşük. Prezident Zelenski qeyd etdiyi kimi, 2019-cu ilin sonunda Azərbaycana səfər etmişdir. Yəni biz təmasları möhkəmləndiririk və müzakirələr əsnasında iki ölkə arasındakı gələcək inkişaf perspektivlərini həm müzakirə edirik, həm də ki, vacib qərarlar qəbul edirik. O cümlədən bu gün keçirdiyimiz çox geniş fikir mübadiləsi nəticəsində əminəm ki, yaxın gələcəkdə biz yeni, gözəl hadisələrin şahidi olacağıq", - deyə Prezident İlham Əliyev bildirib.

Səfərin dolğun işgüzar şəraitdə keçməsini dövlətlərarası münasibətlərin inkişafı yolunda bir sıra vacib sənədlərin imzalanması da göstərir. Belə ki, səfər zamanı iki dövlət arasında Azərbaycan Respublikası Prezidentinin və Ukrayna Prezidentinin Birgə Bəyannaməsi, "Qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında" Saziş, "İkitərəfli ticarətdə təcili əməkdaşlıq haqqında" Anlaşma Memorandumu, "Aqrar sahədə əməkdaşlıq haqqında" Anlaşma Memorandumu, "Energetika sahəsində əməkdaşlıq haqqında" Anlaşma Memorandumu, "Torpaq münasibətləri, dövlət torpaqlarının idarə edilməsi və dövlət torpaq kadastrı sahəsində əməkdaşlıq haqqında" Anlaşma Memorandumu imzalandı.

Hər zaman bir-birinin müstəqilliyini, ərazi bütövlüyünü, suverenliyini dəstəkləyən Azərbaycan və Ukrayna birgə bəyannamə ilə bunu bir daha təsdiq etdilər. Digər sənədlər isə göstərir ki, iki dövlət arasındakı əlaqələrdə yeni əməkdaşlıq istiqamətləri yaranır.

İki dövlət arasındakı qarşılıqlı ticarət dövriyyəsi artıq 1 milyard dollara çatıb ki, bu da tərəflərin əlaqələrin inkişafında nümayiş etdirdiyi iradənin təcəssümüdür. Təbii ki, ticarət dövriyyəsinin artımı tərəfdaşlığın genişləndirilməsi ilə bağlı qarşıya yeni məqsədlərin qoyulmasına imkanlar yaradır.

Ümumiyyətlə, Azərbaycanla Ukrayna arasında münasibətlər pozitiv inkişaf dinamikasına malikdir. Dövlət başçıları, hökumət rəhbərləri, parlament sədrləri və üzvləri, nazirlər, müxtəlif dövlət qurumlarının rəhbərləri səviyyəsində həyata keçirilmiş qarşılıqlı səfərlər iki ölkə arasında münasibətlərin inkişafında vacib amil olub. Xüsusən prezidentlərin səfərləri əlaqələrin inkişafına impuls verib, yeni əməkdaşlıq istiqamətlərinin əsasını qoyub.

Prezident İlham Əliyevin Ukraynaya səfəri hər şeydən əvvəl Azərbaycanla bu ölkə arasındakı dostluq və tərəfdaşlıq münasibətlərinin göstəricisidir. Eyni zamanda bu səfər təsdiq etdi ki, münasibətlərin inkişaf dinamikasının daha da sürətləndirilməsi hər iki tərəfin maraqlarına uyğundur. Ona görə müxtəlif sahələr üzrə əməkdaşlıq gələcəkdə daha da genişlənəcəkdir.

**_Rəşad CƏFƏRLİ,_**
**_"Azərbaycan"_**



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

## İnsan amilini önə çəkən islahatların müəllifi



*Əvvəli 1-ci səh.*

Ötən illərdə yeni dövrün tələblərinə adekvat şəkildə davam etdirilən bu siyasət bütün mahiyyəti ilə insan və vətəndaş amilini ön plana çəkib, dövlətin bütün resurslarını bu yönümdə səfərbər edib. Qürur hissi ilə deyə bilərik ki, 44 günlük Vətən müharibəsində qazandığımız parlaq Qələbə ölkəmizdə insan amilinin yüksəlişinə xidmət edən islahatlar kursuna yeni təkan verib.

2018-2021-ci illərdə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və siyasi iradəsilə reallaşdırılan sosial islahatlar daha geniş miqyas alıb. Dövlət başçısının imzaladığı sərəncamlarla minimum əməkhaqqının, sosial müavinətlərin, pensiya və tələbə təqaüdlərinin, məvaciblərin növbəti dəfə artırılması bunu bir daha təsdiqləyir. İki milyon yüz min insanı əhatə edən bu sosial paketin ümumi həcmi 1,5 milyard manatdır. Ölkə rəhbəri fəaliyyətini "Siyasətimizin əsasında Azərbaycan vətəndaşının maraqları, insan amili dayanır" tezisi ilə davam etdirir. Nəticədə bu gün vətəndaşlarımızda haqlı əminlik, güvənlik var ki, dövlətimiz bütün çətin məqamlarda onların yanındadır.

Ölkəmizin iqtisadi imkanları 2022-ci ildə də quruculuq-bərpa proseslərini daha böyük əzmlə davam etdirməyə geniş şərait yaradır. Bu günlərdə Prezident İlham Əliyev yerli televiziya kanallarına verdiyi müsahibəsi zamanı Azərbaycanın sosial-iqtisadi inkişaf göstəriciləri barədə ətraflı danışdı. Qeyd olundu ki, dövlətimiz sosial-iqtisadi nailiyyətlərini qoruyaraq onu daha da möhkəmləndirir. Ötən il əldə olunmuş iqtisadi artım 5 faizdən çoxdur. Qeyri-neft iqtisadiyyatımız 7,2 faiz artıb. Ümumi sənaye istehsalında 5 faizdən çox artım var. Qeyri-neft sənayesində isə 20 faizə yaxın yüksəliş müşahidə olunur. Azərbaycan Prezidenti müsahibəsində xüsusi qeyd etdi ki, bu cür göstəricilər dünya miqyasında ən yüksək nəticələrdən hesab oluna bilər.

Dövlətimizin iqtisadi sahədə qazandığı nailiyyətlər vətəndaş olaraq bizim üçün hər zaman mühüm əhəmiyyət kəsb edir. Çünki insanlarımızın rifahı ölkəmizin inkişaf dinamikasından asılıdır. Bu inkişafı sosial dövlət olan Azərbaycanda hər kəs dərhal gündəlik güzəranında duyub hiss edə bilir. İndi isə bu göstəricilər bizim üçün başqa anlam da daşıyır. Azərbaycanın artan imkanları Qarabağın, Şərqi Zəngəzurun, illərlə həsrətini çəkib indi isə azadlığına sevindiyimiz yurd ərazilərimizin sürətlə dirçəlməsi deməkdir.

Ötən il həm Qarabağ və Şərqi Zəngəzurda, həm də ölkəmizin başqa bölgələrində genişmiqyaslı investisiya proqramları icra olunub. Bütün bunlar böyük xərclər tələb edir. Bununla belə Azərbaycanın valyuta ehtiyatları 2,5 milyard dollar artıb. Bu, dövlət rəhbərimizin həyata keçirdiyi düzgün inkişaf strategiyasının nəticəsidir. Bu strategiya ilk növbədə ölkəmizin iqtisadi müstəqilliyini təmin edir. İqtisadi müstəqillik isə siyasi müstəqilliyin təməlidir.

### Gözə görünməyən düşmənə qarşı savaş

Çətin və fövqəladə vəziyyətlərə hazırlıq hər bir hökumətin fəaliyyətinin səmərəlilik göstəricisidir. Son 2 ildə dünyanı böyük sınaqlarla üz-üzə qoymuş yeni növ koronavirus (COVID-19) pandemiyası bu reallığı bir daha təsdiqləyib ki, vəziyyətin ciddiliyini ilk gündən düzgün dəyərləndirən, qabaqlayıcı addımlar atan dövlətlər onunla mübarizədə daha az itki veriblər. Sevindirici haldır ki, indi Azərbaycanın adı pandemiya ilə mübarizədə vaxtında qabaqlayıcı tədbirlər görən, ictimai rəyi ən qısa zamanda sosial məhdudlaşdırmaların vacibliyinə hazırlamağa nail olan dövlətlər sırasında çəkilir. Prezident İlham Əliyevin birbaşa nəzarəti, verdiyi tapşırıqlar əsasında reallaşdırılan çoxşaxəli işlər göstərir ki, ölkəmizdə istənilən vəziyyət idarə olunur. Dövlətimiz hər hansı böhran anını nizama salmaq gücündədir. Prezident İlham Əliyev ötən il dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində də bu məsələnin daim nəzarətdə olduğunu xüsusi vurğuladı: "Hesab edirəm ki, bu il COVID-lə mübarizədə yaxşı nəticələr əldə edilib, pandemiya tam nəzarət altındadır. Azərbaycan nadir ölkələrdəndir ki, bu sahədə vəziyyət qəbuledilləndir. Eyni zamanda aparılan genişmiqyaslı peyvəndlənmə siyasəti, peyvəndlənmə işləri bizə kömək göstərir. Əhalinin təxminən 50 faizi artıq 2 doz peyvənd alıb. 18 yaşdan yuxarı olan əhaliyə gəldikdə isə, bu rəqəm 62 faizə çatır. 11 milyondan çox doz vaksin vurulubdur və bu bəla ilə biz yeni ildə də ciddi mübarizə aparacağıq".

2020-ci ilin mart ayından başlayaraq "Biz birlikdə güclüyük!" şüarını koronavirusla mübarizənin əsas qayəsinə, başlıca məramına çevirən respublika rəhbərliyi hər bir qətiyyətli addımında məhz xalqına, mütləq çoxluğun dəstəyinə güvəndiyini nümayiş etdirib. Dünyanın koronavirusdan ciddi ziyan çəkdiyi, hətta inkişaf etmiş ölkələrin belə bu qlobal bəladan sarsıldığı bir zamanda Azərbaycanın pandemiyaya qarşı mübarizədə mütərəqqi model ortaya qoyması bir daha təsdiqləyir ki, ölkə rəhbərinin dövrlə səsləşən qərarları bəzən bütöv bir xalqı faciədən qoruyur.

Avropa və MDB məkanında koronavirusun hələ geniş yayılmadığı bir zamanda Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması gözlənilən təhdidlər qarşısında vətəndaşların maksimum sığortalanmasını təmin etdi. Təsirli və çevik qərarlar qəbul olundu. O da təsadüfi deyildir ki, Azərbaycanın pandemiyanın qarşısının alınmasında nümayiş etdirdiyi ardıcıl və davamlı strategiya beynəlxalq təşkilatlar və aparıcı dövlətlər tərəfindən dəfələrlə təqdir edildi. Ümumdünya Səhiyyə Təşkilatı koronavirusla mübarizədə ölkəmizin həyata keçirdiyi tədbirləri alqışlayaraq unikal model kimi dəyərləndirdi.

Azərbaycan hökumətinin yeni növ koronavirusla mübarizə strategiyası təkcə sanitar-epidemioloji vəziyyətin sabitləşdirilməsinə, əhaliyə keyfiyyətli tibbi xidmətin göstərilməsinə deyil, həm də məhdudlaşdırıcı tədbirlərin aztəminatlı insanlara və biznes subyektlərinə vura biləcəyi ziyanın neytrallaşdırılmasına, sosial dəstək paketlərinin reallaşdırılmasına xidmət etdi. Sosial təcrid tədbirlərinin iş yerləri müvəqqəti bağlanmış vətəndaşların rifahına və sahibkarların işgüzar fəallığına təsirləri nəzərə alınaraq qısa zamanda mühüm dövlət proqramlarının işlənib hazırlanması təmin edildi.

Sərt karantin rejimi ilə bağlı vətəndaşların sosial müdafiəsinin təmini üçün 600 minədək vətəndaşa dörd dəfə 190 manat ödəmənin edilməsi, aztəminatlı ailələrə ərzaq yardımının göstərilməsi, övladlarının təhsil haqqının ödənilməsi mühüm sosial addımlar oldu. Xüsusi karantin rejimində qanunçuluğun, hüquq qaydalarının, nizam-intizamın möhkəmləndirilməsi, eləcə də pandemiyanın qarşısının alınmasında vətəndaş məsuliyyətinin artırılması baxımından Milli Məclis tərəfindən qanunvericiliyə edilmiş bir sıra əlavə və dəyişikliklər də son dərəcə əhəmiyyətli oldu.

### Pandemiyaya qarşı birgə mübarizəni qlobal səviyyədə aktuallaşdıran ölkə

Beynəlxalq aləm Azərbaycanın yaratdığı üstün dəyərləri görür və qiymətləndirir. Tarixi reallıqlar Prezident İlham Əliyevin dünyamiqyaslı lider olduğunu, gələcəyə strateji baxışlarına görə zəmanəmizin bir çox dövlət adamlarından üstünlüyünü göstərir. Azərbaycanın dövlət rəhbərinə qlobal məkanda böyük nüfuz qazandıran əsas cəhətlərdən biri də elə budur! Yüksək fəhmi, irəli sürdüyü mühüm təkliflərin, beynəlxalq səviyyədə təqdim etdiyi təşəbbüslərin özünü doğrultması, bununla yanaşı, fundamental dəyərlərə, ədalətli davranış qaydalarına sadiqliyi ölkə rəhbərimizə böyük inam yaradıb.

Hələ bütün dünyanın getdikcə güclənən pandemiya dalğası qarşısında son dərəcə çətin vəziyyətdə qaldığı vaxtlarda Prezident İlham Əliyev BMT Baş Assambleyasının COVID-19-la bağlı xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etmişdi. Xatırladaq ki, Azərbaycan pandemiyaya qarşı birgə mübarizənin vacibliyini qlobal səviyyədə aktuallaşdıran ilk ölkə kimi 2020-ci ilin aprelində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının dövlət və hökumət başçılarının fövqəladə Zirvə görüşünü təşkil etmişdi. Bu, COVID-19 mövzusuna həsr olunmuş ilk belə beynəlxalq tədbir idi. Ardınca həmin ilin mayında Prezident İlham Əliyevin rəhbərlik etdiyi Qoşulmama Hərəkatının Təmas Qrupunun COVID-19 probleminə dair videokonfransı oldu. Qoşulmama Hərəkatı ölkələri adından BMT-nin Baş katibi Antonio Quterreşə qurumun Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə bağlı müraciət ünvanlandı. Bu təşəbbüs BMT-nin 130-dan çox üzv dövləti tərəfindən dəstəkləndi. Təşəbbüsün belə yüksək dəstək qazanması bir tərəfdən onun müəllifinin - cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti və Qoşulmama Hərəkatının sədri kimi yüksək nüfuzunun göstəricisi idisə, digər tərəfdən də təklifin aktuallığından, faydalarından irəli gəlirdi.

Azərbaycan Prezidenti belə bir toplantını niyə vacib sayırdı? COVID-19 mövzusunun BMT-nin Baş Assambleyası səviyyəsində müzakirəsini aktual və faydalı edən nə idi? 2020-ci il iyulun 6-da Bakının Xətai rayonunda koronaviruslu xəstələrin müalicəsi üçün yaradılmış növbəti modul tipli xəstəxananın açılışından sonra yerli televiziyalardan bir neçəsinə müsahibə verən dövlət başçısı bu suallara təfsilatlı şəkildə aydınlıq gətirdi. Bildirdi ki, bu təşəbbüs koronavirus pandemiyasına qarşı mübarizə işində vahid yanaşmanın tətbiq olunması, ölkələrin özlərinə qapanmaması, inkişaf etmiş dövlətlərin ağır vəziyyətdə olan dövlətlərə kömək göstərməsi niyyətindən irəli gəlir.

BMT Baş Assambleyasının koronavirusla mübarizəyə həsr edilmiş xüsusi sessiyası 2020-ci il dekabrın 3-də keçirildi. Sessiyada Qoşulmama Hərəkatının sədri kimi bu quruma üzv olan ölkələr adından danışan Prezident İlham Əliyev çıxışı zamanı COVID-19-un insanların səhhəti üçün doğurduğu təhlükələrdən əlavə, onun ölkələr, cəmiyyətlər arasında üzə çıxardığı bir sıra problemlərə də diqqət yönəltdi. Bildirdi ki, pandemiya istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələrdə zəiflikləri və bərabərsizliyi aşkara çıxararaq onları daha da kəskinləşdirib. Habelə yoxsulluğu dərinləşdirərək ən həssas kateqoriyadan olan insanların vəziyyətini daha da ağırlaşdırıb. Bu xəstəlik ən yoxsul və zəif vəziyyətdə olan ölkələrə daha çox zərbə vurub. Cənab İlham Əliyev böhranın davam edən fəsadlarının böyük çətinliklə əldə olunmuş nailiyyətləri geri atacağı və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində tərəqqiyə mane olacağı ilə bağlı dərin narahatlıqları diqqətə çatdırdı.

Azərbaycan Prezidenti Qoşulmama Hərəkatı adından bütün ölkələrin dərman, vaksin və tibbi avadanlığa münasib, maneəsiz və bərabər çıxışının əhəmiyyətini vurğuladı. Dövlətimizin rəhbəri 2021-ci il fevralın 1-də Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilmiş binasının açılışından sonra Azərbaycan televiziyasına müsahibəsi zamanı bu məqamları nəzərə alaraq əslində bütün bəşəriyyəti düşündürəcək haqlı sual verdi: "Əgər inkişaf etmiş ölkələr bu vaksinləri öz aralarında ədalətli bölə bilmirlərsə və qarşılıqlı ittihamlar irəli sürürlərsə, onda başqa ölkələr nə fikirləşməlidir? Kasıb ölkələr, inkişafda olan ölkələrin vətəndaşları, bəs onlara kim kömək göstərəcək? Bu haqda düşünülmür? Mən inkişaf etmiş bir çox ölkələrin liderlərindən bu günə qədər bu çağırışları eşitməmişəm. Ona görə biz Qoşulmama Hərəkatının sədri olaraq və öz bəyanatlarımıza sadiq qalaraq artıq dünya arenasında bu məsələni qaldırırıq. Mən sədrliyi öz üzərimə götürərkən demişdim ki, Azərbaycan beynəlxalq hüququ və ədaləti müdafiə edəcək, bütün üzv ölkələrin maraqlarını müdafiə edəcək və biz bunu edirik".

O dövrdə bir çox dövlətin COVID-19 qarşısında ciddi sosial-iqtisadi, tibbi, mənəvi-psixoloji problemlərlə üzləşdiyi, hətta vəziyyətə nəzarəti itirdiyi bir zamanda Azərbaycanın iqtisadi inkişaf tempini qoruyub saxlaması, eləcə də ciddi sosial paketin reallaşdırılması dövlətimizin rəhbərinin məqsədyönlü mövqeyinin və uzaqgörən siyasətinin nəticəsi kimi cəmiyyətdə yüksək qiymət alır. Son 2 ildə sosial-iqtisadi tənəzzül keçirən 150-dən çox ölkə Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına yardım üçün müraciət etdiyi halda Azərbaycanın iqtisadi müvazinətini qoruyub saxlaması, üstəlik, digər dövlətlərə və qurumlara yardım göstərməsi mühüm uğurlar sırasında vurğulanmalıdır. Ötən dövrdə respublikamız 80-dən çox ölkəyə maliyyə və humanitar yardımlar göndərib, vaksin dəstəyi göstərib, beynəlxalq təşkilatlara, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində ianə edib.

Bu günün prizmasından baxdıqda ölkə rəhbərliyinin vəziyyətin sabitləşdirilməsi istiqamətində atdığı addımların nə qədər sistemli, dolğun və ardıcıl olduğu bir daha aydın görünür. O zaman Azərbaycan MDB məkanında birinci ölkə idi ki, vaksinasiyaya start verdi. Qısa müddətdə vaksinlər respublikaya gətirilməyə başladı. Hazırda 46 xəstəxana COVID xəstələrinin müalicəsi ilə məşğuldur. Vaksinasiya ilə bağlı son məlumata görə, 18 yaşdan yuxarı olan əhalinin təxminən 60 faizdən çoxu artıq iki dozanı vurdurub, eyni zamanda, buster dozasını 1 milyon 500 mindən çox adam alıb. İndi bir çox ölkələrdə əsas problem xəstələrin sayı və çarpayıların çatışmazlığı ilə bağlıdır. Respublikamızda bu vəziyyət müsbət həllini tapıb. Hazırda 10 min çarpayı mövcuddur, onlardan cəmi 10 faizi doludur. Yəni 9 min çarpayı boşdur. Xəstəxanalarda 875 reanimasiya yeri var, onlardan 26 faizi doludur. Azərbaycanda əhali arasında hər hansı bir anti-COVID meyilləri, anti-COVID kampaniyaları yoxdur. İndi insanlar şüurlu şəkildə gedirlər, bu peyvəndi alırlar və başa düşürlər ki, bu, onları qoruyur. Azərbaycan Prezidenti yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində bu məsələyə toxunaraq dedi: "... Görülmüş tədbirlər öz səmərəliliyini göstərir. Azərbaycan o ölkələrdəndir ki, hesab edirəm, bu çətin sınaqdan şərəflə çıxır".

### Azərbaycan əzmkar mövqeyini bir daha nümayiş etdirdi

Ötən il Azərbaycan Prezidenti ortaya qoyduğu məqsədyönlü mövqeyini, prinsipial yanaşmasını daha bir qlobal təşəbbüslə davam etdirdi. 150-dən artıq ölkənin dəstəyi ilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının təşkili, Azərbaycanın Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında irəli sürdüyü "Bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi" adlı qətnamənin 2021-ci ilin mart ayında yekdilliklə qəbul olunması Prezident İlham Əliyevin koronavirusla mübarizədə qlobal həmrəyliyin təmin olunması istiqamətində fəaliyyətinin uğurlu nəticələri kimi tarixə düşdü. Bu qətnamədən göründüyü kimi, Prezident İlham Əliyevin qlobal həmrəyliyin təmin olunmasında diqqət yetirdiyi xüsusi məsələlərdən biri varlı və kasıb ölkələr arasında peyvəndlərin bərabər paylanılması, bu sahədə qeyri-bərabərliyə son qoyulması idi. 2021-ci ilin sentyabrında BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində çıxış edən ölkəmizin Prezidenti bir daha dünyada mövcud olan "peyvənd millətçiliyi"ni tənqid etdi, iradlarını bildirdi və Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından peyvəndlərə bərabər və universal çıxışın təmin edilməsi ilə bağlı BMT Baş Assambleyasında da qətnamənin irəli sürüləcəyini elan etdi.

2021-ci ilin noyabrında Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən "COVID-19-dan sonrakı dünya" mövzusunda VIII Qlobal Bakı Forumu ölkəmizin pandemiya ilə mübarizədə prinsipial mövqeyini bir daha əks etdirdi. Forumda xüsusi vurğulandı ki, Azərbaycan yeni növ koronavirusun ciddiliyini və qlobal təhlükə mənbəyi olmasını ilk gündən düzgün dəyərləndirən, virusun yayılması arealının mümkün qədər məhdudlaşdırılması istiqamətində çevik, ardıcıl və sistemli tədbirlər həyata keçirən ölkələrdəndir.

Xüsusi vurğulanmalıdır ki, Azərbaycanın Qoşulmama Hərəkatı adından irəli sürdüyü "COVID-19 əleyhinə peyvəndlərə bütün ölkələrin bərabər, münasib, vaxtında və universal əlçatanlığının təmin edilməsi ilə bağlı qətnamə"nin 2021-ci il dekabrın 16-da BMT Baş Assambleyasında 179 ölkənin dəstəyi ilə qəbulu diplomatik-siyasi və təbliğati baxımdan ölkəmizin dünyadakı mövqelərini daha da gücləndirməklə yanaşı, onun qlobal proseslərə nüfuz imkanlarını göstərdi.

Azərbaycanın koronavirusa qarşı ümumbəşəri mübarizəyə ciddi maddi və mənəvi dəstək verməsi, bütövlükdə bu prosesə qoşulmaqla ortaya çox ciddi nəticələr qoyması təsdiq edir ki, Prezident İlham Əliyevin səyləri təkcə rəhbəri olduğu xalqın deyil, həm də bütün bəşəriyyətin xilasına yönəlib. Azərbaycanın Qoşulmama Hərəkatı adından təqdim etdiyi sənədin BMT-də qəbulu göstərir ki, ölkəmizin "peyvənd millətçiliyi" ilə bağlı ədalətli, insanpərvər və sivil yanaşması beynəlxalq səviyyədə yetərincə dəstəklənir və haqlı hesab edilir. Qəbul edilmiş qətnamə fonunda dünyada bir reallıq da təsdiqini tapır ki, vaksin ədalətsizliyinə son qoyulmasa, koronavirus infeksiyasına yaxın perspektivdə qalib gəlmək mümkün olmayacaq.

Azərbaycan Prezidenti qlobal səviyyədə ona inanan, dəstək verən həmfikirləri ilə birgə bu missiyanı da uğurla həyata keçirir, haqqın, ədalətin qələbəsinə nail olur.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Nailiyyətlər daha böyük inkişafa yol açır

Keçən il Azərbaycanda iqtisadi artım 5 faizdən çox təşkil edib. Hələ də koronavirus pandemiyasının hökm sürdüyü bir şəraitdə yaşadığımıza görə bu, olduqca müsbət nəticədir. Üstəlik, Azərbaycan müharibədən təzəcə çıxmış bir ölkədir. İstənilən ölkədə müharibədən sonrakı dirçəliş tədricən və çətin baş verir. Azərbaycanın isə müharibədən keçən bir il ərzində gördüyü genişmiqyaslı və çoxşaxəli işlər dünyanı haqlı olaraq heyrətə gətirir.

Prezident İlham Əliyevin cari il yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində də bunlardan ətraflı bəhs olunub. Dövlət başçısı ötən ilin uğurlarını qeyd edərək deyib: "Ən sevindirici hal odur ki, qeyri-neft iqtisadiyyatımız 7,2 faiz artıb. Bu onu göstərir ki, qeyri-neft sektorunun inkişafı ilə bağlı bizim bütün planlarımız həyatda öz əksini tapır. Sənaye istehsalına gəldikdə həm ümumi sənaye istehsalımız 5 faizdən çox, həm də qeyri-neft sənayemiz 20 faizə yaxın artıb. Hesab edirəm ki, bu, dünya miqyasında bəlkə də ən yüksək göstəricidir".

2021-ci ildə böyük xərclərimiz olmasına baxmayaraq, valyuta ehtiyatlarımız da artıb. Qarabağ və Şərqi Zəngəzur bölgələrində və ölkənin digər yerlərində investisiya proqramları tam icra edilib.

Azərbaycanın idxal-ixrac əməliyyatlarında saldo da neçə illərdir müsbət olaraq qalır. Eləcə də 2021-ci ildə ixrac idxalı üstələyib və 10 milyard dollardan çox müsbət saldo yaranıb. Qeyd edək ki, indi xarici ticarət saldosu müsbət olan ölkələr tək-təkdir. Belə ki, dünyanın əksər ölkələrində idxal ixracdan çoxdur.

Prezident ixracla bağlı planların həyata keçirildiyini bildirib: "Qeyri-neft ixracımız 40 faizdən çox artıb. Bu imkan verir ki, biz valyutanı təkcə neft-qaz hesabına yox, eyni zamanda digər məhsullar hesabına ölkəmizə gətirək. Nəzərə almalıyıq ki, ölkədə əhali artır, daxili istehlak artır. Belə olan halda qeyri-neft ixracını artırmaq, doğrudan da, böyük nailiyyət sayıla bilər".

Ötən il qazanılan bütün bu nailiyyətlərin əsasında Azərbaycan dövlətinin uzunmüddətli strategiyası dayanır ki, biz onun sevindirici nəticələrini görürük.

2022-ci ilə gəldikdə isə, Prezident belə deyib: "Bu ilin büdcəsi - bu da keçən ildə əldə edilmiş nailiyyətlərin hesabınadır, - tarixdə ən böyük büdcə olacaq. Büdcə xərcləri təxminən 30 milyard manata çatacaq. Müharibədən təzə çıxmış ölkə üçün bu nailiyyətlər, doğrudan da, onu göstərir ki, iqtisadi sahədə çox gözəl mənzərə vardır. Bu il həm investisiya layihələri icra ediləcək azad olunmuş torpaqlarda, həm də ölkəmizin bütün yerlərində islahatlar davam etdiriləcək... Təbii ki, iqtisadi sahə istisna deyil".

Ərazilərimizin işğaldan azad edilməsi ölkə iqtisadiyyatı qarşısında geniş perspektivlər açır. Həyata keçirilən tədbirlər nəticəsində kənd təsərrüfatı xeyli inkişaf edəcək, ərzaq təhlükəsizliyinin təmin olunmasında önəmli addımlar atılacaq. Həmin yerlərdə artıq əkin işlərinə başlanıb, fermerlərə təlimatlar verilib. Azad edilmiş mövcud torpaqlarda taxılçılıq üçün yararlı olan və məqbul sayılan yerlərdə əkin aparılsa, indiki məhsuldarlıqla 200 min tona yaxın buğda götürmək mümkündür.

Buğda istehsalının artmasına ehtiyac olduğu indiki dövrdə buna nail olmaq önəmli məsələdir. Çünki ölkəmizdə il ərzində istehlak edilən 3,3-3,4 milyon ton buğdanın cəmi 2 milyon tonunu özümüz yetişdiririk. Taxılçılıqda hər hektarın məhsuldarlığı 3,2 tondur. İri təsərrüfatlarda bu göstərici 6-7 ton təşkil edir. Əgər ölkə üzrə həmin rəqəm 4-4,5 ton olarsa, yəni məhsuldarlıq artırılarsa, buğda ilə təminatımızda böyük irəliləyiş ola bilər.

Prezident buna nail olacağımıza ümid bəslədiyini bildirərək demişdir: "Ölkəmizdə, o cümlədən kənd təsərrüfatında aparılan islahatlar, iqtisadi mühitin və biznes mühitinin yaxşılaşdırılması sayəsində biz böyük dərəcədə bu məqsədlərə çatacağıq. Hər halda biz buğdadan başqa digər ərzaq məhsulları ilə özümüz özümüzü təmin etməliyik, mən buna inanıram".

Qeyd edək ki, son dövrlərdə Azərbaycan ərzaq təhlükəsizliyi sahəsində nəzərəçarpan nailiyyətlər əldə edib. Meyvə, üzüm, tərəvəz istehsalı artıb. Əhali mal əti ilə təqribən 90, qoyun əti ilə 100 faiz səviyyəsində yerli istehsal hesabına təmin edilir. Cins mal-qaranın alınması süd istehsalına imkan verib. Halbuki əvvəllər mal-qaranın cinsi südçülük üçün əlverişli deyildi. İndi süd və süd məhsulları istehsalında 80 faizə çıxa bilmişik. Toyuq əti istehsalında da göstərici belədir. Bu rəqəmlər ümid verir ki, Azərbaycan istər kənd təsərrüfatında və ərzaq təhlükəsizliyinin təmin edilməsində, istərsə də digər sahələrdə qarşıya qoyulmuş hədəflərə çatacaq. Buna Qarabağda və Şərqi Zəngəzurda aparılan sürətli və geniş tikinti, quruculuq, bərpa işləri də inam yaradır.

Cəsarətlə demək olar ki, dünyanın heç bir yerində müharibədən sonra belə qısa müddətdə bu qədər quruculuq işi görülməyib. Bu da Azərbaycan dövlətinin iradəsini və iqtisadi qüdrətini göstərən daha bir əyani misaldır. Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində dediyi kimi: "Həm Azərbaycanda, həm dünyada hər kəs yaxşı bilir ki, Azərbaycan təkbaşına, heç kimdən bir manat, bir dollar yardım almadan bu işləri görür. Azad edilmiş bütün torpaqlarda görülmüş işlər Azərbaycanın dövlət büdcəsi hesabına aparılır. Heç bir yardım almamışıq, heç bir kredit almamışıq, bu işləri öz gücümüz hesabına görürük".

İlboyu Qarabağ və Şərqi Zəngəzurla yanaşı, respublikanın digər regionlarında da yeni layihələr reallaşdırılıb. Dövlət başçısı bölgələrə 47 dəfə səfər edib və bunların hər birində müxtəlif təyinatlı yeni obyektlərin açılışı qeyd olunub, yaxud növbəti layihələrə start verilib. Beləliklə, 2021-ci ilin iqtisadi xəritəsinə daha neçə-neçə istehsal və sosialyönümlü müəssisənin, elektrik stansiyasının adı yazılıb. Yolların şəbəkəsi genişlənib, infrastruktur zənginləşib və müasirləşib.

Hər yenilik isə qarşıdakı uğurun təməlidir. Prezident İlham Əliyev keçən ilin uğurlu olduğunu vurğulayaraq deyib: "Əminəm ki, 2022-ci il də uğurlu olacaq. Çünki ölkədə mövcud olan birlik, həmrəylik və gözəl ab-hava bu reallığı bizə təmin edəcək".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Dubayda “Əbu-Dabi Dayanıqlılıq Həftəsi”nin açılışı olub

### Tədbirdə Azərbaycanı Baş nazirin müavini Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir






Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərinin “Expo 2020 Dubai” sərgi mərkəzində “Əbu-Dabi Dayanıqlılıq Həftəsi”nin açılışı olub və “Zayed Dayanıqlılıq Mükafatı”nın təqdimetmə mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirlərdə Azərbaycanı Baş nazirin müavini Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir. 2008-ci ildən etibarən bu tədbir müxtəlif ölkələrdən yüksəksəviyyəli nümayəndə heyətlərinin, dövlət və hökumət başçılarının, nüfuzlu siyasətçilərin, aparıcı şirkətlərin, sahibkarların, elm adamlarının iştirakı ilə təşkil edilir və dünyanın dayanıqlılıq üzrə ən aparıcı tədbirlərindən biri hesab olunur.

“Qlobal əməkdaşlıq və liderlik”, “İqtisadi inkişaf, texnologiya və innovasiya” mövzularına həsr olunmuş “Əbu-Dabi Dayanıqlılıq Həftəsi 2022” tədbirinin əsas ideyası qlobal iqlim və dayanıqlılıq məqsədlərinə çatmaq üçün zəruri iqtisadi inkişaf həllərinin, texnologiyaların və innovasiyaların tətbiqi məsələsidir. Yüksəksəviyyəli tədbirdə həmçinin günəş və təmiz enerji, su, iqlim və ətraf mühit, ekotullantılar və “ağıllı şəhərlər” üzrə xüsusiləşdirilmiş panel iclasların keçirilməsi nəzərdə tutulur.

Baş nazirin müavini Əli Əhmədov tədbir çərçivəsində BƏƏ-nin vitse-prezidenti və Baş naziri, Dubay Əmiri Şeyx Məhəmməd bin Raşid Al Məktumla görüşüb. Yüksəksəviyyəli tədbirə dəvətə görə minnətdarlığını bildirən Əli Əhmədov Baş nazirə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını və xoş arzularını çatdırıb. BƏƏ-nin Baş naziri dövlətimizin başçısının salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını və xoş arzularını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

Əli Əhmədov BƏƏ-nin “Masdar” şirkətinin baş icraçı direktoru Məhəmməd Cəmil Əl-Ramah ilə də görüşüb. Görüş əsnasında “Masdar” şirkəti tərəfindən ölkəmizdə həyata keçirilməsi nəzərdə tutulan layihələrə, əməkdaşlığın perspektivlərinə və ölkəmizin işğaldan azad edilən ərazilərində investisiya qoyuluşu imkanlarına dair geniş fikir mübadiləsi aparılıb, Azərbaycan Respublikası ilə BƏƏ arasında əlaqələrin inkişaf tempindən məmnunluq ifadə olunub.

Baş nazirin müavini, həmçinin EXPO Mərkəzində Azərbaycan və BƏƏ pavilyonlarında olub.

Sonra Azərbaycan nümayəndə heyəti Əbu-Dabidə “Əbu-Dabi Dayanıqlılıq Həftəsi sərgisi”nə, “Masdar” şirkətinə aid şəhərciyə və şirkətin 800 meqavat gücünə malik günəş elektrik stansiyasına baş çəkərək müəssisənin fəaliyyəti ilə tanış olub.

# Daxili İşlər Nazirliyində ötən ilin yekunları müzakirə olunub





Yanvarın 18-də Daxili İşlər Nazirliyində (DİN) cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə respublika daxili işlər orqanlarının 2021-ci ildəki fəaliyyətinin nəticələri və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, videokonfrans formatında keçirilən iclası giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən fəal hüquq-mühafizə siyasətinin məntiqi nəticəsi olaraq ölkəmizdə möhkəm təməllərə söykənən ictimai asayişin və sabitliyin 2021-ci ildə də etibarlı qorunduğunu qeyd edib. Nazir bildirib ki, daxili işlər orqanları tərəfindən əvvəlki illərdə əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli işlər görülüb. Eyni zamanda, o, daxili işlər orqanlarının və Daxili Qoşunların cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi, xüsusi karantin rejiminə nəzarətin həyata keçirilməsi sahəsində xidməti vəzifələrin öhdəsindən layiqincə gəldiyini, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə və işğaldan azad olunmuş ərazilərdə təhlükəsizliyi etibarlı təmin etdiyini vurğulayıb.

Nazir Vilayət Eyvazov hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, 2021-ci ildə əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan dövlət qurumları üzrə 31 min 131 cinayət qeydə alınıb. Onlardan 94,2 faizi daxili işlər və prokurorluq orqanlarının prosessual qaydada araşdırdığı hüquqazidd əməllər olub. Cinayətlərin 84 faizini böyük ictimai təhlükə törətməyən və az ağır növlər təşkil edib.

Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri ilə cinayətlərin 88,9 faizinin açılması təmin edilib. Ayrı-ayrı hüquqazidd əməllərin açılmasının nəticələri də yüksək olmaqla ağır və xüsusilə ağır cinayətlərin 82,9, qeyri-aşkar şəraitdə baş verənlərin 83,4, şəxsiyyət əleyhinə olanların 97,9, mülkiyyət əleyhinə olanların 79,9 faizi açılıb. Hesabat dövründə vətəndaşların iştirakı ilə açılan cinayətlərin sayı 39 faiz artaraq 7837 fakt təşkil edib. Prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 332 cinayət üzrə təqsirli şəxslər müəyyənləşdirilərək məsuliyyətə cəlb olunub.

İclasda qeyd olunub ki, 2020-ci illə müqayisədə hesabat dövründə şəxsiyyət əleyhinə cinayətlər 4,3, o cümlədən qəsdən adamöldürmələr 13, adam öldürməyə cəhdlər 16,7, qəsdən sağlamlığa az ağır zərər vurmalar 2,7, odlu silahın tətbiqi ilə baş verən cinayətlər 21,4, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilənlər 31, oğurluqlar 3,3, o cümlədən mənzillərdən oğurluqlar 14, soyğunçuluqlar 26 faiz azalıb. Həyata keçirilmiş operativ tədbirlər nəticəsində 268 kriminal qrup zərərsizləşdirilib, odlu silah saxlayan və daşıyan 188 şəxs cinayət məsuliyyətinə cəlb edilib.

Qanunsuz dövriyyədən 2020-ci illə müqayisədə 1,1 ton çox - 3 ton 45 kiloqram narkotik vasitənin çıxarıldığını, 174 tondan artıq narkotik xassəli bitkilərin aşkarlanıb məhv edildiyini vurğulayan Vilayət Eyvazov son illər müvafiq sahədə görülən işləri müsbət qiymətləndirib. Nazir bu bəlaya qarşı mübarizədə hər kəsin ümumi işə real köməyinin vacibliyini, həmçinin narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə vətəndaşların məlumatları əsasında müsbət nəticələri olan bir çox əməliyyatların keçirildiyini xüsusi vurğulayaraq bu növ cinayətlərin açılmasında da fəal vətəndaşlıq mövqeyi sərgiləyən şəxslərə təşəkkür edib.

Yeniyetmələr və gənclər arasında antinarkotik təbliğatın daha məqsədyönlü davam etdirilməsinin vacibliyinə də toxunan nazir bu istiqamətdə əsas diqqətin ölkədə narkotiklərə tələbatın azaldılmasına yönəldilməsinin əhəmiyyətini nəzərə çatdırıb. General-polkovnik Vilayət Eyvazov Daxili İşlər Nazirliyinin bu məsələdə cəmiyyətin yetkin təbəqəsinə, sağlam düşüncəli hər bir vətəndaşa güvəndiyini, mediadan, sosial şəbəkələrin aktiv istifadəçilərindən, o cümlədən blogerlərdən daha böyük gözləntilərin olduğunu qeyd edib.

Vətəndaş məmnunluğunun təmin olunması, ərizə və şikayətlərin obyektiv, həssaslıqla araşdırılması, qanunçuluğun qorunması, şəxsi heyətin etik davranış qaydalarına riayət etməsi kimi mühüm vəzifələrin icrasına da diqqət çəkən general-polkovnik Vilayət Eyvazov bu istiqamətlərdə böyük bir fəaliyyətin ortaya qoyulduğunu deyib. Nazir nəticələrin müsbət olduğunu, o cümlədən vətəndaşların qəbulu və minlərlə müraciətinin araşdırılması zamanı qaldırdıqları məsələlərin əksəriyyətinin qanunauyğun həllini tapdığını, 102 Xidmətinə, qaynar xətlərə daxil olmuş, sosial şəbəkələrdə yayımlanmış hər bir müraciətə çevik reaksiya verildiyini, cinayətlər nəticəsində vurulmuş maddi ziyanın təxminən 90 faizinin ödənildiyini, əhaliyə göstərilən elektron xidmətlərin müasir tələblərə uyğun təkmilləşdirildiyini nəzərə çatdırıb.

İclasda Bakı Şəhər Baş Polis İdarəsinin rəisi polis general-mayoru Əkbər İsmayılov, Baş Mühafizə İdarəsinin rəisi polis general-mayoru Nurullah Məmmədxanlı, Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi polis general-mayoru Oqtay Kərimov, Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi polis general-mayoru Teymur Hacıyev, Sumqayıt Şəhər Polis İdarəsinin rəisi polis polkovniki Fəqan Azadəliyev və ərazi polis orqanlarının rəisləri hesabat məruzələri ilə çıxış ediblər.

Kollegiya iclasına yekun vuran daxili işlər naziri 2021-ci ildə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ümumi işə mənfi təsir göstərən halların mövcudluğunu da nəzərə çatdıraraq onların hərtərəfli təhlili, aradan qaldırılması yolları, həmçinin qarşıda duran vəzifələrlə bağlı konkret tapşırıq və tövsiyələrini verib.

General-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, şəxsi heyətinin sosial müdafiəsinin gücləndirilməsinə, infrastrukturunun yenilənməsinə göstərdiyi ali diqqət və qayğıya, fəaliyyətinə verdiyi böyük dəyərə və etimada görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib. Nazir əminliklə bildirib ki, respublikada asayişin, daxili təhlükəsizliyin, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzifələr bundan sonra da layiqincə yerinə yetiriləcək.

# Monteneqro Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü hər zaman dəstəkləyib

Yanvarın 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Monteneqro parlamentinin sədri Aleksa Beçiçin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Ceyhun Bayramov Azərbaycanın Monteneqro ilə münasibətlərin inkişafına əhəmiyyət verdiyini bildirib. O, iki dövlət arasında yüksəksəviyyəli siyasi dialoqun mövcud olmasından və münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində inkişafından məmnunluq ifadə edib. Nazir parlamentin sədrinin hazırkı səfəri çərçivəsində keçirilmiş görüş və müzakirələrin ikitərəfli əlaqələrin daha da genişlənməsinə öz müsbət təsirini göstərəcəyini vurğulayıb.

Monteneqro parlamentinin sədri Aleksa Beçiç səmimi salamlamaya və qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti, Milli Məclisin Sədri, habelə Baş nazir ilə keçirilmiş görüşlərə məmnunluqla istinad edib. Münasibətlərin inkişafında hər iki ölkənin diplomatik nümayəndəliklərinin fəaliyyəti xüsusilə vurğulanıb. Aleksa Beçiç Azərbaycanın pandemiya ilə mübarizə çərçivəsində ölkəsinə göstərdiyi humanitar yardımı minnətdarlıqla qeyd edib.

Tərəflər iki ölkə arasında iqtisadi, sərmayə, nəqliyyat, enerji, humanitar, o cümlədən turizm sahələrində əməkdaşlığın inkişafı perspektivləri ətrafında fikir mübadiləsi aparıblar. İki ölkənin siyasi sahədə, eləcə də konsulluq sahəsində məsləhətləşmələri davam etdirməsinin vacibliyi qeyd olunub. Habelə iqtisadi-ticarət sahəsində əlaqələrin genişləndirilməsi baxımından hökumətlərarası birgə komissiyanın fəaliyyətinin önəmi vurğulanıb.

Nazir Ceyhun Bayramov qarşı tərəfə bölgədə mövcud olan cari vəziyyət, xüsusilə də 30 ilə yaxın davam edən işğala son verən 44 günlük müharibənin nəticələri, azad olunmuş ərazilərimizdə həyata keçirilən yenidənqurma işləri, çoxsaylı məcburi köçkünlərin mümkün qədər qısa zamanda şərəfli və təhlükəsiz geri dönüşünü təmin etmək üçün hökumət tərəfindən görülən təxirəsalınmaz tədbirlər, o cümlədən ərazilərin minalardan təmizlənməsi sahəsində fəaliyyət, üçtərəfli bəyanatların icrası ilə bağlı atılan addımlar barədə məlumat verib.

Aleksa Beçiç dost Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü Monteneqronun hər zaman dəstəklədiyini qeyd edib. O, ölkəsinin sülh və dialoqun gələcəyinə inandığını vurğulayıb, bu xüsusda bölgədə sülh quruculuğu fəaliyyətində Azərbaycana uğurlar arzulayıb.

Monteneqro parlamentinin sədri Azərbaycanın xarici işlər nazirini ölkəsinə səfərə dəvət edib.

Nazir Ceyhun Bayramov dəvətə görə təşəkkürünü bildirib, Azərbaycanın ikitərəfli əlaqələrin daha da inkişafına hazır və sadiq olduğunu diqqətə çatdırıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Azərbaycan ictimaiyyətinin nümayəndələri Fransa Prezidentinə müraciət ünvanlayıblar

Azərbaycan ictimaiyyətinin nümayəndələri Fransa Respublikasının Prezidenti Emmanuel Makrona müraciət ünvanlayıblar.

AZƏRTAC müraciəti təqdim edir:

- Cənab Prezident!

Fransada Respublikaçılar partiyasının prezident seçkilərində namizədi, İl-dö-Frans regionunun prezidenti xanım Valeri Pekres dekabrın 22-də Mişel Barniye və Brüno Retayyonun müşayiəti ilə Azərbaycan Respublikasının beynəlxalq birlik, o cümlədən Fransa Respublikası tərəfindən tanınmış beynəlxalq sərhədlərini qeyri-qanuni yolla və gizlicə keçmiş və Azərbaycanın Qarabağ bölgəsinin Xankəndi şəhərinə səfər etmişdir. Bu qanunsuz səfər sivil dünyanın qanunlarını kobud şəkildə pozur.

Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması, münasibətlərin normallaşması və hər iki xalq arasında etimadın gücləndirilməsi istiqamətində addımların atıldığı bir zaman xanım Pekresin qeyri-qanuni səfəri və bu səfəri seçki təbliğatının alətinə çevirməsi cəhdi yenicə müharibədən çıxmış və quruculuq işlərinə başlamağa çalışan bölgədə vəziyyəti qəsdən qızışdırmaq və sülh səylərinə zərbə vurmaq məqsədi daşıyır. Seçiciləri səfərbər etmək üçün onun bu addıma ehtiyacı varmı? Lakin heç bir daxili seçki mübarizəsi belə bir davranışa bəraət qazandıra bilməz. Biz bu məsuliyyətsiz addımı qətiyyətlə qınayırıq.

Xanım Pekres və onun bəzi müşavirləri, eləcə də erməni diasporunun nümayəndələri mətbuatda və sosial şəbəkələrdə münaqişəyə dini don geyindirməyə çalışırlar və insanların dini heysiyyətləri üzərindən Azərbaycan dövlətinə və xalqına qarşı aşağılayıcı fikirlər səsləndirirlər, bu isə Azərbaycan xalqına qarşı nifrətə açıq çağırışdır. Fransa kimi bəşəri dəyərlər ənənəsinin və dinin siyasətdən ayrılmasının dövlətin təməl daşını təşkil edən bir ölkədə açıq şəkildə bir xalqa qarşı nifrət hissinin aşılanması heç bir mənəvi və universal dəyərlər çərçivəsinə sığmır və bizi çox təəccübləndirir. Onların münaqişəyə dini don geyindirmək cəhdləri səlibçi təfəkkürünə xas davranış kimi qiymətləndirilə bilər. Demək olarmı ki, Fransa maarifçilərinin suveren hüquqi dövləti yenidən obskurantist baxışların basqısına məruz qalır?

Xanım Pekres namizəd kimi istədiyi yerə gedə bildiyini deyir. O, əlbəttə, Fransa və Fransanın üzv olduğu Avropa İttifaqının hərəkət azadlığından bəhrələnib istədiyi yerə getməkdə və öz seçki təbliğatını aparmaqda sərbəstdir. Lakin o, Azərbaycana gəlmək üçün Azərbaycanın müvafiq qurumlarına müraciət etməli və ölkə ərazisinə giriş icazəsi almalı idi. Onun belə bir icazə olmadan Azərbaycan ərazisinə gizli keçməsi Azərbaycan qanunvericiliyini, eləcə də Fransanın milli qanunvericiliyinin tələblərini, həm beynəlxalq, həm də ikitərəfli öhdəliklərini kobud şəkildə pozur.

Fransa hər şeydən öncə Ermənistanla Azərbaycan arasında 28 il davam etmiş münaqişənin həll edilməsi üçün yaradılan ATƏT-in Minsk qrupunun üç həmsədrindən biridir. O, həmsədr dövlət kimi tərəflər arasında neytrallığını qorumaq və sülh səylərini dəstəkləmək öhdəliyinə malikdir. Fransa və Azərbaycan həm ikitərəfli, həm də çoxtərəfli müstəvilərdə bir-birinin beynəlxalq sərhədlərini tanıyır, ərazi bütövlüklərinə qarşılıqlı hörməti təsdiqləyir və dostluq münasibətlərini inkişaf etdirirlər. İki dövlət arasında 1993-cü il dekabrın 20-də imzalanan müqavilə dostluq və əməkdaşlığın inkişaf etdirilməsinə xidmət edir və onların üzərinə beynəlxalq hüququn prinsip və normalarına uyğun olaraq öhdəliklər qoyur.

Fransanın 1958-ci ildə qəbul edilən konstitusiyasına əsasən, xarici siyasət məsələləri dövlətin mərkəzi hakimiyyətinin müstəsna səlahiyyətlərinə daxildir. Ərazi vahidləri - bələdiyyələr, departamentlər, regionlar - dövlətin xarici siyasəti ilə məşğul ola bilməz və onun beynəlxalq öhdəliklərinə xələl gətirə bilməzlər (Ərazi vahidləri Ümumi Məcəlləsinin L.1115-1 və sonrakı maddələri). Bununla bağlı Fransanın daxili işlər və Avropa və Xarici işlər nazirləri tərəfindən 2018-ci il mayın 24-də NOR/INTB1809792C nömrəli sirkulyar imzalanmışdır.

Cənab Prezident, Fransa milli qanunvericiliyinin tələblərini nəzərə alaraq, bu kimi qanunsuz səfərlərin qarşısının alınması və gələcəkdə belə halların təkrar olunmaması üçün zəruri tədbirlərin görülməsini xahiş edirik.

### Müraciəti imzalayanlar:

1. Tural Gəncəliyev - müstəqil deputat
2. Etibar Əliyev - müstəqil deputat
3. Vüqar Bayramov - müstəqil deputat
4. Zaur Sadıqbəyli - hüquqşünas, Fransa
5. Mayisə Ağamirzəyeva - Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurasının Niderland üzrə koordinatoru
6. Yaşar Musayev - Almaniya Azərbaycanlıları Alyansı İdarə heyətinin sədri
7. Rəşad İbrahim - Belçika Azərbaycanlıları Federasiyasının həmsədri
8. Arzu Həsənova - Lüksemburq “Qarabağ” Azərbaycan Mədəniyyət Assosiasiyasının direktor müavini
9. Əliməmməd Nuriyev - hüquq müdafiəçisi, Konstitusiya Araşdırmalar Fondunun prezidenti
10. Sahib Məmmədov - hüquq müdafiəçisi, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri
11. Çingiz Qənizadə - hüquq müdafiəçisi, Demokratiya və İnsan Hüquqları Komitəsini sədri
12. Zaur İbrahimov - “Prioritet” Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri
13. Günel Səfərova - hüquq müdafiəçisi, “Vətəndaş” Tədqiqat və İnkişaf İctimai Birliyinin sədri
14. Novela Cəfərova - hüquq müdafiəçisi, D.Əliyeva adına Azərbaycan Qadınlarının Hüququnun Müdafiə Cəmiyyətinin sədri
15. Səltənət Qocamanlı - hüquq müdafiəçisi, İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi İctimai Birliyinin sədri
16. Hafiz Həsənov - hüquq müdafiəçisi, Hüquq və İnkişaf İctimai Birliyinin sədri
17. Səadət Bənənyarlı - hüquq müdafiəçisi, “Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsi” İctimai Birliyinin sədri
18. Fatma Səttarova - Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, II Dünya müharibəsi iştirakçısı
19. Rey Kərimoğlu - Azərbaycanda Minadan Zərərçəkənlərin Assosiasiyası İctimai Birliyinin sədri, “Qarabağ Qaziləri” İctimai Birliyinin sədr müavini
20. Ramil İsgəndərli - Hüquqi Təhlil və Araşdırmalar İctimai Birliyinin sədri
21. Mayis Əliyev - “Sosial Hüquqların Araşdırılması” İctimai Birliyinin sədri
22. Xalid Kazımov - Regional İnsan Hüquqları və Media Mərkəzi İctimai Birliyinin sədri
23. Xanım Əhmədzadə - “Hüquqşünas Qadınlar Assosiasiyası” İctimai Birliyinin sədri
24. Rəfail Becanov - İnsan Hüquqları və Maarifçilik İctimai Birliyinin sədri
25. Səməd Vəkilov - “Müvəkkil Hüquq Mərkəzi” İctimai Birliyinin sədri
26. Vüsalə Hüseynli - “İslahatçı qadınlar və innovasiyalar” İctimai Birliyinin sədri
27. Şahin Camalov - “İnsan Hüquqları XXI əsr-Azərbaycan” fondunun rəhbəri
28. Rafiq İsmayılov - “Vətəndaş Cəmiyyəti Uğrunda” Müstəqil Məsləhət və Yardım Mərkəzinin direktoru
29. Mehriban Zeynalova - “Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin sədri
30. Kəmalə Ağazadə - “Azərbaycan Uşaqları” İctimai Birliyinin sədri
31. Vüqar Qədirov - Azərbaycan Qaçqın və Məcburi Köçkün Gənclər Təşkilatının sədri
32. Mahirə Əmirhüseynova - “XXI Əsrin Qadınları” İctimai Birliyinin sədri
33. Mehriban Abdullayeva - “Demokratik Cəmiyyət və Qadın Hüquqlarının Müdafiəsi” İctimai Birliyinin sədri
34. Xatirə Vəliyeva - “Xankəndi” məcburi köçkünlərə dəstək İctimai Birliyinin sədri
35. Əbil Zeynalov - “Məcburi Köçkün Müharibə Veteranlarına Dəstək” İctimai Birliyinin sədri

# Prezident İlham Əliyevin çağırışı jurnalistlərin peşəkar məsuliyyətini daha da artırır

Yanvarın 18-də Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində bir sıra media subyektlərinin rəhbər və nümayəndələrinin iştirakı ilə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, “İctimai nəzarətin fomalaşmasında medianın rolu”nun müzakirə olunduğu görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 12-də yerli televiziya kanallarına verdiyi müsahibədən irəli gələn vacib məqamlara toxunulub, ictimai nəzarətin formalaşması və həyata keçirilməsində medianın roluna diqqət çəkilib.

Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində medianın ictimai nəzarət rolunu vurğulamasının mühüm əhəmiyyət kəsb etdiyini deyən MEDİA Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib: “Dövlət başçısı qeyd etdi ki, mediada yer alan məlumatların mütləq əksəriyyəti öz təsdiqini tapır və bu haqda dərhal ölçü götürülür. Prezident İlham Əliyevin jurnalistlərin əməyinə verdiyi yüksək qiymət böyük etimadın göstəricisi olmaqla yanaşı, media işçilərinin də öz peşəkar missiyalarını həyata keçirməkdə məsuliyyətlərini artırmış olur”.

Medianın İnkişafı Agentliyinin məhz ictimai və dövlət maraqlarını əsas götürərək media subyektləri arasında müsabiqələr keçirdiyini vurğulayan Əhməd İsmayılov bu tədbirlər çərçivəsində hər il məhz ictimai əhəmiyyət kəsb edən yüzlərlə materialın hazırlandığını diqqətə çatdırıb. İcraçı direktor bu yaxınlarda geniş ictimai müzakirələrdən sonra parlament tərəfindən qəbul olunmuş və imzalanmaq üçün təqdim edilmiş “Media haqqında” qanun layihəsinin ölkəmizin informasiya mühitinin sağlamlaşdırılmasına, onun rəqabət qabiliyyətinin artırılmasına, xüsusən də media subyektlərinin iqtisadi müstəqilliklərinin gücləndirilməsinə ciddi töhfə olacağını qeyd edərək adıçəkilən layihənin müddəalarının jurnalistlərin ictimai nəzarətçi kimi vacib funksiyanı lazımi səviyyədə yerinə yetirməsinə hüquqi təminat verdiyini bildirib.

Görüşdə çıxış edən media subyektlərinin rəhbər və nümayəndələri Prezident İlham Əliyevin ictimai nəzarət mexanizmlərinin hazırlanması ilə bağlı çağırışlarının media qarşısında yeni vəzifələr qoyduğunu vurğulayıblar.



# Fatma Səttarova, 100 yaşın mübarək!

## Vətənə hədsiz sevgi, qələbəyə sonsuz inam və əsl mərdlik nümunəsi

*Əvvəli 1-ci səh.*

Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb, amansız döyüşlərdə onların göstərdikləri misilsiz şücaət və igidlik, arxa cəbhədə mübarizə aparanların əmək rəşadəti bu gün hamı üçün əvəzsiz və qiymətli örnəkdir.

Müharibə illərində Bakı sovetlər ittifaqı ordusunu, bütövlükdə ölkəni yanacaq, sürtkü yağları və digər materiallarla təmin edən əsas təchizatçı idi. Ölkədə işlədilən yanacağın 70 faizdən çoxunu Azərbaycan neftçiləri istehsal edirdi. Müharibənin birinci ilində cəbhəyə 23,5 milyon ton neft göndərildi. Bütövlükdə, Böyük Vətən müharibəsi illərində ölkənin və ordunun ehtiyacları üçün 75 milyon ton neft yollanıldı.

"Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" - şüarı ilə çalışan Azərbaycan neftçiləri 160 dəfə Dövlət Müdafiə Komitəsinin, Ümumittifaq Həmkarlar İttifaqı Mərkəzi Şurasının və SSRİ Neft Sənayesi Xalq Komissarlığının keçici Qırmızı Bayrağını aldı. Bu da həmin dövrdə çəkilən zəhmətin ən yüksək səviyyədə qiymətləndirilməsi idi.

Azərbaycan xalqının İkinci Dünya müharibəsində göstərdiyi qəhrəmanlıq nümunələri haqqında uzun-uzadı, günlərlə, hətta aylarla danışmaq olar. Lakin onun canlı örnəyini göstərmək min sözü əvəz edəcək qədər dəyərli, əvəzedilməzdir. Gəncliyini faşizmə qarşı ağır döyüş cəbhələrində, mübarizələrdə keçirmiş, Leninqrad mühasirəsindən sağ çıxmağı bacarmış, hərbi zavodlarda çalışmış, hospitallarda yaralıları xilas etmiş müharibə veteranı - 100 yaşını bu il qeyd edən Fatma Səttarova məhz müharibənin canlı örnəyi, həmin dövrün qaynar xatirələri ilə bir növ qiymətli xəzinədir.

Fatma Səttarova 1922-ci ildə Bakıda dünyaya gəlib. Ailənin tək övladı olsa da, müharibənin başlandığı ilk aylarda, 1941-ci ildə - 18 yaşında könüllü surətdə İkinci Dünya müharibəsinə tibb bacısı olaraq yollanıb. 1940-cı ildə Bakıda Tibb Texnikumundan yenicə məzun olmuş, 1941-ci ilin yanvarında ailə həyatı qurmuşdu. Beş ay sonra isə İkinci Dünya müharibəsi başlayır. Beləliklə, onun həyatı tamamilə dəyişir.

İyunun 22-də faşist Almaniyasının Sovet İttifaqına hücum etməsi elan olunur. O vaxt Fatma xanım həyat yoldaşı Məhəmmədlə birlikdə hərbi komissarlığa gəlib, könüllü cəbhəyə getmək istədiklərini bildirirlər. Fatma Səttarova cəbhəyə gedəndə həyat yoldaşı Montin adına Maşınqayırma Zavodunun direktoru idi. Müharibə başlayanda bu zavod profilini dəyişərək hərbi təyinatlı silah-sursat istehsalına keçmişdi. Ona görə də Məhəmməd Səttarov Bakıda qalmalı olur, Fatma xanım isə şəfqət bacısı kimi cəbhəyə yollanır.

Cəbhədə keçirdiyi günləri xatırlayarkən F.Səttarova müharibənin çox dəhşətli olduğunu, bunların yaşanmadan başa düşülməsinin çətinliyini bildirir: "Müharibəyə gedəndə çox gənc idim, lakin orada çoxsaylı ölümlərin şahidi oldum. Bunları xatırlamaq çox çətindir, cəbhə yollarını, ağır xəsarət almış əsgərləri artilleriyanın atəşləri altında döyüş meydanından çıxarmağımızı, hərbi hospitallardakı günləri unutmaq mümkün deyil. O vaxtdan neçə illər keçsə də, müharibəni unutmaq olmaz. O zamanlar hər kəs onun qarşısında doğma Vətəni düşməndən müdafiə etmək vəzifəsi dayandığını bilirdi".

Müharibənin dəhşətlərini xatırlayaraq, iliyinə qədər onu yenidən hiss etsə də, şərəfli ömür yolu Fatma xanımı həm də qürurlandırır. Yaşadığı çətinlikləri bu gün artıq hüznlə deyil, qələbəni yaşamış və bunda payı olan bir qəhrəman kimi danışır: "Səngərdə idim. Yaralının başını sarıyırdım. Uzaqdan kiminsə "ana, ana" deyə inildisini eşitdim. Səngərdən ayrılıb 50 metr irəli getdim ki, çuxurun içində ağır yaralı var. Dedim haradansan, "Bakıdanam" deyə cavab verdi. Bombardman nəticəsində ağır yaralanmışdı, al-qan içərisində idi. Onun yarasını bağlayıb yenidən səngərə qayıtdım. Gördüm faşistlərin tankı olduğumuz səngərə yaxınlaşır. Yaralı əsgərlə birlikdə yerə yatdıq, alman tankı səngərin üstündən keçdi. Daşları başımıza tökə-tökə..."

O vaxt almanlar Leninqradı mühasirəyə aldıqları zaman F.Səttarova ordu ilə birgə Ladoqa gölü ilə hərəkət edərək, şəhərə daxil olmağı bacarmışdı. O, alman təyyarələrinin hər tərəfi bombaladığı bir zamanda dörd ay yarım mühasirədə qalan Leninqraddan o biri sahilə Ladoqa gölü üzərində salınmış "Həyat yolu" körpüsü ilə ərzaq, dava-dərman daşınmasında mühüm rol oynamış, Leninqradın mühasirəsi günlərində dəfələrlə ölümlə üzləşmişdir. Sovet ordusu blokadanı açdıqdan sonra təcrübəli tibb bacısı yaralıların gəmilərlə Ladoqa gölü vasitəsilə Leninqraddan çıxarılmasında da əvəzsiz xidmətlər göstərib. Buradan Stalinqrad cəbhəsinə göndərilən F.Səttarova sovet ordusu ilə birlikdə Berlinə doğru irəliləyir. Lakin Macarıstana çatdığı zaman ayağından və qolundan qəlpə yarası alır və 1945-ci ilin fevralında Tibbi Komissiyanın qərarı ilə ordudan tərxis olunub Bakıya qayıdır. Bundan cəmi üç ay sonra isə mayın 9-da sovet ordusu faşizm üzərində Qələbə qazanır və Berlində Reyxstaq üzərində Qələbə bayrağı sancılır. Bu anları xatırladıqda Fatma xanımın xəyalları yenə o illərin təəssüratlarına qərq olur və gözləri bir daha ilk dəfə o hissi yaşayırcasına sevinc yaşları ilə dolur.

İkinci Dünya müharibəsinin unudulmaz, hər zaman böyük qayğı və sevgi ilə yad edilən veteranlarından olan Fatma Səttarovanı bütün Azərbaycan ictimaiyyəti və xalqı tanıyır. O, bir ziyalı kimi bu gün də ölkəmizin ictimai-siyasi, mədəni həyatında böyük xidmətlər göstərir, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi işində yaxından və fəal iştirak edir. Müharibə illərində çox əzab-əziyyət çəkən F.Səttarova, müharibədən sonra həm də ali təhsil alıb - Bakı Dövlət Universitetinin İqtisadiyyat fakültəsini bitirib, müxtəlif vəzifələrdə çalışıb. Uzun illər dövlət qurumlarında çalışıb, səmərəli fəaliyyəti ilə daim seçilib. Onun 4 övlad, 11 nəvə, 25 nəticəsi var.

Fatma Səttarova müharibə və əmək veteranı kimi hazırda Respublika Veteranlar Təşkilatının keçirdiyi tədbirlərdə fəal iştirak edir, gənclərin Vətənə, dövlətə sədaqət ruhunda tərbiyəsində biliyini əsirgəmir. Tez-tez cəbhə bölgələrində olur, əsgərlərlə görüşür, Azərbaycanı MDB ölkələrində İkinci Dünya müharibəsi ilə bağlı keçirilən tədbirlərdə layiqincə təmsil edir, o cümlədən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında fəal rol oynayır. 2021-ci ilin fevral ayından Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədri vəzifəsində çalışır.

Ölkəmizdə Fatma Səttarovanın timsalında bütün veteranlara çox böyük dövlət dəstəyi və qayğısı var. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş Böyük Vətən müharibəsi iştirakçılarına, müharibədə həlak olanların ailələrinə göstərilən diqqət və qayğı bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Veteranların sosial təminatı, postmüharibə dövründə sosial dəstək, məşğulluq, mənzil, fərdi ev və avtomobil, müasir reabilitasiya vasitələri ilə təminatı, həmçinin yubilelərinin təntənə ilə qeyd olunması Prezident İlham Əliyev tərəfindən həyata keçirilən dövlət siyasətinin mühüm prioritetlərindən biridir.

Veteran təşkilatları yerli dövlət hakimiyyət orqanları ilə birgə ali və orta ixtisas təhsili müəssisələrində, ümumtəhsil məktəblərində, hərbi hissələrdə, hərbi məktəblərdə, müəssisələrdə, idarələrdə, təşkilatlarda müntəzəm surətdə müxtəlif tədbirlər, elmi konfranslar, görüşlər, sərgilər, xatirə gecələri və s. kimi tədbirlər keçirirlər. Belə tədbirlərə respublikanın tanınmış ziyalıları, alimlər, 1941-1945-ci illərin Böyük Vətən müharibəsi veteranları dəvət olunurlar. Yüksək səviyyədə keçirilən bu tədbirlər gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm əhəmiyyət kəsb edir.

Düşmən üzərində qələbədən sonra həlak olmuş, itkin düşmüş əsgərlərin axtarışları ilə bağlı geniş hərəkat başladı. Respublikanın 35 min nəfərdən çox qırmızı ləpirçisi müharibənin marşrutları ilə getdi. Tarixi döyüşlərin iştirakçıları ilə birlikdə onlar naməlum qəhrəmanların adlarını müəyyənləşdirir, Vətən uğrundakı savaşda canlarını qurban vermiş əsgərlərin qəbirlərini axtarıb tapır, bu barədə onların qohumlarına xəbər verirdilər. Ləpirçilər eyni zamanda döyüş meydanlarında azərbaycanlı əsgərlərin göstərdiyi qəhrəmanlıqlar haqqında xatirələr toplayırdılar. Elə indi də Böyük Vətən müharibəsi cəbhələrində, xarici ölkələrdə həlak olmuş Azərbaycan övladlarının dəfn olunduğu yerlərin, abidələrin axtarışları davam edir.

Azərbaycan xalqı öz övladlarının - iki dəfə Sovet İttifaqı Qəhrəmanı olmuş general-mayor Həzi Aslanovun, Sovet İttifaqı Qəhrəmanı, Mogilyov şəhərinin fəxri vətəndaşı, polkovnik Aslan Vəzirovun, Minsk şəhərinin küçələrindən birinə adının verildiyi, Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevin, eləcə də müharibə illərində Vətən torpaqlarını qorumuş, 1943-1944-cü illərdə düşməndən azad etmiş minlərlə əsgərin qarşısında baş əyir!

Onların adları, xatirələri ölməzdir!

Bizim xalq öz qəhrəmanlarına böyük ehtiram və hörmətlə yanaşır. Dövlətimiz veteranların daha yaxşı, daha firavan yaşamaları, özlərini daha rahat hiss etmələri üçün bütün lazımi tədbirləri görür.

Vətən qəhrəman övladlarını unutmur. İnsanlar daim onları xatırlayır. Qəhrəmanlara aid xatirə yerlərini ziyarət edən hər kəs mütləq oradan Böyük Qələbə, onun şanlı əsgərləri, onların ölməz igidlikləri haqda qəlbindəki silinməz xatirələrlə geri dönür.

Fəxr edirik ki, İkinci Dünya müharibəsi illərində Vətənə hədsiz sevgi, şücaət, faşizm üzərində Qələbəyə sonsuz inam və əsl mərdlik nümayiş etdirən istedadlı veteran qadınlarımız da var.

***Ziyad SƏMƏDZADƏ,***
***Milli Məclisin deputatı, akademik***

# "Vətənpərvərlik tərbiyəsi haqqında" qanun layihəsi hazırlanacaq

Yanvarın 18-də Milli Məclisin Elm və təhsil komitəsinin 2022-ci ilin yaz sessiyasında ilk onlayn iclası keçirilib.

Komitə sədri Bəxtiyar Əliyev əvvəlcə yeni sessiyanın başlanması münasibəti ilə həmkarlarını təbrik edib və onlara yaz sessiyasındakı fəaliyyətlərində uğurlar arzulayıb. Sonra o, komitənin 2022-ci il yaz sessiyasının qanunvericilik işləri planı haqqında danışıb.

Bəxtiyar Əliyev bildirib ki, işçi qrup "Ali təhsil haqqında" qanun layihəsi üzərində işi tamamlayıb, sənəd müvafiq qurumlardan rəy alınandan sonra qarşıdakı sessiyada komitədə müzakirə ediləcək. Bu sessiyada, eyni zamanda "Vətənpərvərlik tərbiyəsi haqqında" qanun layihəsinin hazırlanması və digər layihələrin müzakirəsi nəzərdə tutulub. Qeyd edilib ki, komitə üzvlərinin ölkədaxili və beynəlxalq səviyyəli bir sıra tədbirlərdə iştirakı planlaşdırılır. İclasda komitənin iş planı yekdilliklə təsdiqlənib.

Sonra Bəxtiyar Əliyev 2021-ci ilin payız sessiyası ərzində komitədə görülən işlərə dair hesabatı təqdim edib. Bildirilib ki, hesabat dövründə komitənin 6 iclası keçirilib, 11 məsələyə baxılıb. İclaslarda "Təhsil haqqında", "Peşə təhsili haqqında" və digər qanunlarda edilən dəyişikliklər müzakirə olunub. Bəxtiyar Əliyev qeyd edib ki, komitə üzvləri "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirələrində də fəal iştirak ediblər.

Komitə sədri hesabat dövründə vətəndaşlardan komitəyə 129 ərizə və məktubun daxil olduğunu bildirib. Müraciətlər qeyd olunan məsələlərin həlli üçün aidiyyəti qurumlara ünvanlanıb. Bildirilib ki, komitə üzvləri sessiya dövründə vətəndaşlarla daim ünsiyyətdə olub, onları maraqlandıran məsələlərlə bağlı öz səlahiyyətləri çərçivəsində lazimi işlər görüblər. Vətəndaşlardan daxil olan müraciətlərin sayı azalıbdır ki, bu da ölkədə həyata keçirilən islahatlar nəticəsində Azərbaycan vətəndaşının daim dövlətin, dövlət başçısının diqqət mərkəzində olmasından irəli gəlir.

İclasda komitə sədri bu günlərdə Prezident İlham Əliyevin ölkə mediasına verdiyi müsahibədən də söz açıb. Prezident müsahibəsində Azərbaycanda şəhid ailələrinə, qazilərə və müharibədən əziyyət çəkmiş insanlara göstərilən diqqət və qayğıdan danışıb. Qeyd edib ki, Azərbaycanda şəhid ailələrinə, qazilərə və müharibədən əziyyət çəkmiş insanlara göstərilən diqqət, doğrudan da, dünyada nümunə sayıla bilər. Azərbaycan bu sahədə özünün modelini ortaya qoyub.

Sonra payız sessiyası dövründə komitə üzvlərinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının tərkibindəki fəaliyyətlərindən, beynəlxalq tədbirlərdə iştiraklarından bəhs edilib. Hesabat dövründə komitə üzvlərinin ölkə həyatında baş verən ictimai-siyasi proseslərdə fəal iştirak etdiyi bildirilib.

İclasda komitənin 2021-ci il payız sessiyası dövründə hesabatı məqbul hesab edilib.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Milli Məclisin Regional məsələlər komitəsinin yaz sessiyasında iş planı təsdiqləndi

Yanvarın 18-də Milli Məclisin Regional məsələlər komitəsinin 2022-ci ilin yaz sessiyasında ilk iclası keçirilib.

İclası açan komitə sədri Siyavuş Novruzov 2021-ci ilin ölkəmiz üçün uğurlu keçdiyini bildirib. Prezident İlham Əliyevin ötən il işğaldan azad olunmuş ərazilərə tarixi səfərlərini və Böyük Qayıdışa hazırlıq məqsədilə uğurla həyata keçirilən nəhəng bərpa-quruculuq layihələrini diqqətə çəkən komitə sədri yola saldığımız ili uğurların davamı kimi dəyərləndirib. Prezident İlham Əliyevin siyasi iradəsi əsasında 2021-ci ildə həyata keçirilən sistemli islahatların iqtisadiyyatın inkişafı, idarəetmədə səmərəliliyin artırılması, qanunun aliliyinin təmin olunması, vətəndaş cəmiyyətinin və hüquqi dövlətin əsaslarının gücləndirilməsi baxımından əhəmiyyətini vurğulayıb.

S.Novruzov bildirib ki, ötən ildə siyasi dialoq prosesinin uğurla davam etdirilməsi milli birliyin daha da möhkəmlənməsinə mühüm töhfə verib. O qeyd edib ki, müasir Azərbaycan milli tərəqqinin yeni mərhələsinə qədəm qoyub, qalib ölkə, qalib xalq kimi qarşısında yeni perspektivlər açılıb.

Sonra Siyavuş Novruzov iclasın gündəliyi barədə məlumat verib. Bildirilib ki, iclasın gündəliyinə Milli Məclisin 2021-ci ilin payız sessiyası dövründə Regional məsələlər komitəsində görülən işlər barədə hesabat və komitənin 2022-ci ilin yaz sessiyası üçün iş planı daxil olmaqla 2 məsələnin müzakirəsi çıxarılıb.

Əvvəlcə hesabatı təqdim edən komitə sədri bildirib ki, həmin dövrdə Regional məsələlər komitəsinin keçirdiyi 7 iclasda 4 məsələyə baxılıb, o cümlədən "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" qanunda dəyişiklik edilməsi barədə sənəd və "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi üç oxunuşda müzakirələrdən keçib. Komitə həmçinin Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli Assosiasiyaları ilə birgə "Azərbaycanın tarixi zəfəri" mövzusunda videokonfrans təşkil edib.

Fəaliyyətini karantin rejiminin tələblərinə uyğun quran komitənin ünvanına 2021-ci ilin payız sessiyası dövründə vətəndaşlardan elektron və kağız formada 67 müraciət, ümumilikdə komitə üzvlərinə 1034 müraciət daxil olub. Daxil olan müraciətlər araşdırılıb, onların bir qisminin icrası təmin edilib, digərlərinin həlli üçün aidiyyəti qurumlar qarşısında məsələ qaldırılıb və müvafiq tədbirlər görülüb.

Bildirilib ki, həmçinin Regional məsələlər komitəsinin üzvləri sosial şəbəkələrdə, kütləvi informasiya vasitələrində, müxtəlif tədbirlərdə fəal iştirak ediblər, aktual ictimai-siyasi məsələlərlə bağlı öz mövqelərini bildiriblər. Eyni zamanda təmsil etdikləri ərazilərdə cəmiyyətin həssas qrupları, şəhid ailələri, qazilərin problemləri ilə yaxından maraqlanıblar.

İclasda komitə üzvləri regionların inkişafı, yerli özünüidarəetmə orqanlarının mövcud vəziyyəti və gələcək perspektivləri, işğaldan azad olunmuş ərazilərdə bələdiyyələrin yaradılması, bu istiqamətdə payız sessiyası dövründə dinləmələrin və müzakirələrin təşkili kimi məsələlərlə bağlı fikirlərini səsləndiriblər, rəy və təkliflərini irəli sürüblər.

Müzakirələrin sonunda Regional məsələlər komitəsinin Milli Məclisin 2021-ci ilin payız sessiyası dövründə gördüyü işlərlə bağlı hesabatı və 2022-ci ilin yaz sessiyasında iş planı təsdiqlənib.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

# Azərbaycan taxılı həm də xarici ölkədə yetişdirəcək

## Dövlət ərzaq təhlükəsizliyinin təminatı üçün nə mümkündürsə edir

Prezident İlham Əliyev yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən siyasi, iqtisadi və sosial məsələlər barədə ətraflı məlumat vermişdir. Dövlət başçısı o cümlədən ərzaq təhlükəsizliyi və aqrar sektordakı vəziyyət, həmçinin perspektivlər haqqında geniş söhbət açmışdır.



Prezidentin müsahibədə aqrar sektor barədə ətraflı məlumat verməsi təsadüfi deyil. İndi dünyada kənd təsərrüfatı məhsullarına tələbat sürətlə artır. Bunu mütəxəssislər əsasən əhalinin sürətlə artması, digər tərəfdən məhsul istehsalının azalması ilə əlaqələndirirlər. Dünya üzrə təkcə taxıl istehsalı ötən il 2020-ci ilə nisbətən 21 milyon tondan çox azalıb. Ərzaq məhsullarının qiymətinin artması isə yalnız iqtisadi deyil, həm də ciddi sosial məsələdir. Bu üzdən dünyanın bütün dövlətləri bu məsələyə ciddi yanaşırlar.

Ölkəmizdə də taxıl istehsalını artırmaq üçün tədbirlər görülür. Buğda istehsalı ilə məşğul olan fermerlərə subsidiyaların verilməsi təsadüfi deyildi. Bu, onu göstərir ki, dövlət ərzaq təhlükəsizliyinin təminatında önəmli rol oynayan buğda yetişdirən fermerləri istehsalı artırmaları üçün stimullaşdırır.

Prezident İlham Əliyev ölkədə taxıl istehsalında olan real vəziyyət və perspektivlər barədə demişdir: "Heç vaxt tarixdə - sovet dönəmində və müstəqillik dövründə bu rəqəmlərə biz çıxmamışıq. Amma yenə də özümüzü biz hələ ki təmin edə bilmirik və xüsusilə buğda ilə. Biz təqribən 3,3-3,4 milyon ton buğda istehlak edirik. Onlardan cəmi 2 milyonu Azərbaycanda istehsal edilir. Qalanını idxal edirik və əgər mən bu gün desəm ki, biz 100 faiz özümüzü ərzaq buğdası ilə təmin edə bilərik, yəqin ki, indiki şəraitdə səhv olar. Amma çalışmalıyıq ki, yerli istehsal artsın, ilk növbədə, məhsuldarlıq hesabına. Çünki bu gün taxılçılıqda məhsuldarlıq 32 sentnerdir, yəni 3,2 tondur. Əgər bu rəqəm 4 tona, 4,5 tona çatsa, bu mümkündür, çünki iri fermer təsərrüfatlarının bəzilərində 7 tondur, bəzilərində 6 tondur. Mən bu təsərrüfatlarda olmuşam və bu təsərrüfatların yaradılmasında da fəal iştirak etmişəm. Onda biz mövcud əkin sahələrindən özümüzü maksimum dərəcədə ərzaq buğdası ilə təmin edə bilərik".

Dövlət başçısı müsahibəsində işğaldan azad edilən torpaqların əkilib-becərilməsi sayəsində buğda istehsalını artırmağın mümkün olduğunu da bildirmişdir. Ancaq biz bu yolla taxıl istehsalını artırsaq da, tələbatın ödənilməsi üçün 1,3 milyon ton buğda idxal etmək məcburiyyətindəyik. Belə ki, istehsalla yanaşı, əhali də, deməli, istehlak da artır.

Hazırda dünyada istehsalın artırılması məhsuldarlıq hesabına əldə edilir. İnkişaf etmiş ölkələrdə hər herktardan buğda istehsalı 80 sentnerə qədər yüksəlib. Buna görə də məhsuldarlığın artırılması ən doğru yoldur. Dövlət başçısının da qeyd etdiyi kimi, bütün aqrotexniki qaydalara əməl edən iri fermer təsərrüfatlarında məhsuldarlıq 60-70 sentner olduğu halda, kiçik və orta fermer təsərrüfatlarında bu rəqəm 32 sentnerdir. Bir daha vurğulayaq ki, işğaldan azad edilən torpaqlarda taxıl əkini aparmaqla mövcud imkanlardan əlavə 200 min tona yaxın buğda götürmək mümkündür. Bu da ölkənin ümumi tələbatının ödənilməsi üçün kifayət etmir. Buna görə də məhsuldarlığın artırılmasına diqqət yetirilməlidir.

Dövlət başçısı müsahibəsində ölkənin buğdaya olan tələbatının ödənilməsi istiqamətində maraqlı və mühüm bir məqama da toxunmuşdur: kiçik fermer təsərrüfatlarına dəstəyi artırmaqla yanaşı, başqa ölkələrdə taxılçılıq üçün məqbul olan münbit torpaqları icarəyə götürüb orada məhsul yetişdirmək və Azərbaycana gətirmək. Onu da qeyd edək ki, hazırda dünyada bu üsuldan geniş istifadə olunur.

Prezident İlham Əliyev ölkənin taxıla olan tələbatın ödənilməsinə böyük önəm verdiyini bildirərək demişdir: "Ona görə bu real mənzərədir. Bizim istəyimizlə imkanlarımız bu gün üst-üstə düşmür. Ona görə hər kəs bu real vəziyyəti görməlidir və nə mümkünsə biz edirik. Mən demək olar ki, gündəlik formatda bu işlə məşğul oluram. Ümid edirəm ki, ölkəmizdə, o cümlədən kənd təsərrüfatında aparılan islahatlar, iqtisadi mühitin və biznes mühitin yaxşılaşdırılması sayəsində biz böyük dərəcədə bu məqsədlərə çatacağıq. Hər halda biz buğdadan başqa digər əsas ərzaq məhsulları ilə özümüzü təmin etməliyik, mən buna inanıram".

Aqrar sektora verilən dəstək və bu sahədə aparılan islahatlar sayəsində kənd təsərrüfatı məhsullarında yüksək artım qeydə alınıb. Məsələn, son 15 ildə ölkəmizdə meyvə istehsalı 2 dəfə artıb. Üzüm, pambıq istehsalı da faizlə yox, dəfərlərlə yüksəlib.

Dövlət dəstəyi heyvandarlığın inkişafında da özünü göstərir. Məsələn, bu gün mal əti istehsalı daxili tələbatın 90 faizini ödəyir, qoyunçuluqda bu rəqəm hətta 100 faizdir. Azərbaycanda süd istehsalını artırmaq üçün mal-qaranın cins tərkibinin dəyişdirilməsinə xüsusi diqqət yetirilib. Hazırda ölkəmizdə olan 1 milyon mal-qaranın 70 mini cins mal-qaradır. Bunun sayəsində ölkəmizdə süd istehsalı 80 faizə qədər yüksəlib. Azərbaycanda indiyədək süd istehsalı bu qədər yüksək olmayıb.

Sözsüz, bu artımların heç biri səbəbsiz deyil. Təkcə keçən ilin yanvar-noyabr aylarında Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən aqrar sektorda fəaliyyət göstərən 4175 fiziki və hüquqi şəxs 65,6 milyon manat məbləğində güzəştli kreditlə təmin edilib. Həmin vəsaitin 39,5 milyon manatı texnika və avadanlıq, 2,3 milyon manatı orta-iri həcmli kənd təsərrüfatı təyinatlı kreditlər, 23,5 milyon manatı makrokreditlərdir. Bununla yanaşı, həmin dövrdə agentlik tərəfindən 194 fermerə 6279 baş damazlıq heyvan alınması üçün 0,26 milyon manat kredit və 14,1 milyon manat güzəştli vəsait ayrılıb.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



# QANLI YANVAR - 32



## Azərbaycandakı dini konfessiyaların rəhbərləri 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar bəyanat yayıblar

Azərbaycandakı dini konfessiyaların rəhbərləri 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar bəyanat yayıblar.

AZƏRTAC bəyanatı təqdim edir: "Azərbaycan xalqının tarixi yaddaşına dərin hüzn, eyni zamanda, milli qürur və qəhrəmanlıq salnaməsi kimi həkk olunmuş Qanlı Yanvar faciəsinin növbəti ildönümü ərəfəsindəyik. Azərbaycanın dövlət müstəqilliyinin bərpası uğrunda canlarını fəda etmiş, Uca Yaradanın nəzərində ən yüksək məqamlardan sayılan şəhidlik zirvəsinə ucalmışlara xalqımızın ehtiramı əbədidir.

20 Yanvar xalqımızın milli müstəqillik, azadlıq uğrunda mübarizəyə hazırlıq ruhunun və yenilməz iradəsinin rəmzidir. Həmin günlərdə sovet ordusunun amansız hərbi təcavüzünə məruz qalan xalqımız diz çökmədi, azadlıq əzmini itirmədi. Moskvadan xalqımızın mərd oğlu, müdrik dövlət xadimi Heydər Əliyev bütün təqiblərə baxmayaraq doğma xalqı ilə həmrəy olduğunu nümayiş etdirib SSRİ rəhbərliyinin törətdiyi bu qanlı cinayətə kəskin etirazını bildirdi, onun təşkilatçılarını sərt ittiham etdi, törədilmiş hadisəni hüquqa, demokratiyaya, humanizmə zidd təxribat kimi səciyyələndirdi. Şeyxülislam Allahşükür Paşazadə keçmiş SSRİ Prezidenti Mixail Qorbaçova göndərdiyi açıq ittiham məktubunda hadisələrə sərt və prinsipial münasibətini bildirdi. Siyasi lider və dini rəhbərin qətiyyətli mövqeyi xalqı səfərbər etdi. Bir milyondan artıq insan təqiblərdən, ölümdən belə qorxmayaraq şəhərin baş meydanına axışdı, azadlıq uğrunda qurban getmiş şəhidləri müqəddəs Vətən torpağına tapşırdı. Beləliklə, qanlı 20 Yanvar faciəsi müstəqil Azərbaycan dövlətinin tarixinə xalqımızın şərəf və qəhrəmanlıq salnaməsi, milli vəhdət nümunəsi olaraq həkk olundu.

20 Yanvar bizi müstəqilliyə, milli, dini dəyərlərin bərpasına aparan yolun ilk mübarizəsi və ilk mənəvi qələbəsi idi. Qarabağ uğrunda mübarizənin - Birinci Qarabağ müharibəsi, Aprel döyüşləri, Vətən müharibəsinin şəhidləri 20 Yanvar şəhidlərinin uca mənəviyyat yolunun davamçılarıdır. Şəhidlərimizin müqəddəs ruhlarına ən böyük töhfə Qarabağ Zəfərimiz, müstəqilliyimizin əbədiliyi, dövlətçiliyimizin artan qüdrəti, Vətənimizin tərəqqisi və xalqımızın səadətidir. 1991-ci ildə müstəqilliyini elan etmiş Azərbaycan xalqı ərazi bütövlüyümüzə təhdidlərə 44 gün davam edən Vətən müharibəsi ilə son qoydu. Müzəffər Ali Baş Komandanının rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu tarixi ədaləti bərpa edərək Azərbaycan xalqının ən ülvi arzusunu yerinə yetirdi - Qarabağı, Şuşanı azad edərək xalqımıza qaytardı. Şükürlər olsun ki, Azərbaycan Prezidenti İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xalq, dövlət naminə davamlı səyləri sayəsində ölkəmizin siyasi, iqtisadi qüdrəti daha da artır, beynəlxalq nüfuzu daha da güclənir, mədəni, dini-mənəvi dəyərləri ən yüksək səviyyədə qorunaraq inkişaf etdirilir. Biz, Azərbaycandakı dini konfessiyaların rəhbərləri bütün Azərbaycan dindarları adından müzəffər dövlət rəhbərimiz, zati-aliləri Prezident İlham Əliyevə böyük Qarabağ Zəfərinə, habelə 2022-ci ili "Şuşa ili" elan etmək kimi fəxarət doğuran qərarına görə dərin minnətdarlığımızı bildirir, dövlətçiliyimiz naminə misilsiz fəaliyyətinə Uca Yaradandan uğurlar diləyirik.

Azərbaycanın müstəqil dövlətçiliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuşlar sırasında müxtəlif din və millətlərə mənsub vətəndaşlarımız vardır. 20 Yanvarda, Vətən müharibəsində Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda ölkədəki xristianlar, yəhudilər, digər millət və din mənsubları Azərbaycan xalqı ilə birgə mübarizə meydanında olmuşlar. Azərbaycanın tarixi dini mərkəzi olan Qafqaz Müsəlmanları İdarəsi və dini konfessiyalar hər zaman birlikdə haqq işimizin qələbəsi üçün var qüvvəsi ilə səy göstərmişlər. Çoxmillətli, çoxkonfessiyalı Azərbaycan cəmiyyəti Milli Qəhrəman Mübariz İbrahimovla bərabər, Aqarunov, Yakovlev, Polovinko, Senyuşkin, habelə Larisa, Yefimiçev, Meeroviç kimi rus, yəhudi, ukraynalı və digər millətləri təmsil edən qəhrəman Vətən övladları ilə fəxr edir. Şəhidlərimiz, qazilərimiz, qəhrəman övladlarımız bizim qürur mənbəyimizdir.

Şəhidlik imanın, əqidə və amal uğrunda mübarizənin ən yüksək zirvəsidir. Biz, Qafqaz Müsəlmanları İdarəsinin sədri və ölkəmizdəki dini konfessiyaların rəhbərləri 20 Yanvar şəhidlərinə, eləcə də Vətənimizin bütövlüyü və milli müstəqilliyimiz uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizə Uca Yaradandan rəhmət diləyir, ailələrinə dərin hüznlə başsağlığı verir, qazilərə şəfa diləyirik. Zəfər çalmış xalqımız bu ümummilli hüzn gününü birlik və vəhdətimizi təcəssüm etdirən qürurlu tarixin ildönümü olaraq hər il olduğu kimi yüksək səviyyədə qeyd edir, şəhidlərimizin əziz ruhlarını anır, Ulu Rəbbimiz, Vətən qarşısında müqəddəs borcunu yerinə yetirməkdən şərəf duyur.

Uca Allah Vətən şəhidlərinə rəhmət eləsin! Amin!

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri***

***Yepiskop Vladimir FEKETE,***
***Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının ordinarisi***

***Arximandrit Aleksiy NİKONOROV,***
***Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi***

***Melih YEVDAYEV,***
***Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri***

***Aleksandr ŞAROVSKİ,***
***Bakıdakı Avropa yəhudiləri icmasının rəhbəri***

***Robert MOBİLİ,***
***Alban-udi xristian dini icmasının sədri"***

# Qanlı şənbə gecəsi heç vaxt unudulmur

Xalqımızın milli müstəqillik və azadlıq uğrunda mübarizə salnaməsində tarixiləşən günlərdən biri də 1990-cı ilin 20 Yanvarıdır. Azərbaycanın ərazi bütövlüyünün pozulmasına qarşı etiraz edənləri, azadlıq, müstəqillik və suverenlik ideyalarını dəstəkləyən xalqı cəzalandırmaq məqsədi ilə həmin gün imperiya mərkəzi Bakı şəhərinə əksəriyyəti ermənilərdən ibarət qoşun yeritdi.

Təcavüz nəticəsində 147 nəfər mülki şəxs qətlə yetirildi, 700-dən çox insan yaralandı, 321 nəfər itkin düşdü, yüzlərlə insan həbs edildi, ya da ömürlük şikəst oldu. Günahsız vətəndaşlara qarşı sovet qoşunlarının bu hücumu 1986-cı ildə Qazaxıstanda, 1989-cu ildə Gürcüstanda dinc əhali arasında törədilmiş qırğının davamı idi.

1980-ci illərin sonlarında ölkəmizdə ictimai-siyasi vəziyyətin kəskinləşməsi, ittifaq rəhbərliyinin uğursuz "yenidənqurma" siyasəti, iqtisadi islahatların düzgün aparılmaması, milli siyasət sahəsində buraxılan kobud səhvlər Azərbaycanda milli azadlıq hərəkatının geniş vüsət almasına səbəb oldu. Bu kəskinləşmənin əsas səbəblərindən biri də Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməsi, uydurma "Dağlıq Qarabağ problemi"nin ortaya atılması idi. SSRİ rəhbərliyindəki havadarlarına arxalanan ermənilərin Azərbaycanın ərazilərinə iddiaları və dinc əhaliyə qarşı törətdikləri cinayətlər xalqımızı hiddətləndirmişdi. Bununla əlaqədar başlayan milli azadlıq hərəkatı öz möhtəşəmliyi və prinsipiallığı ilə SSRİ rəhbərliyində ciddi narahatlıq yaratmışdı. Ölkəmizdə milli azadlıq mücadiləsi Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağda baş qaldıran erməni separatizmi, həm də qədim türk torpaqları sayılan indiki Ermənistandan 300 mindən çox soydaşımızın zorla öz ata-baba yurdlarından qovulmasına səbəb olmuşdu. Həmin dövrdə nümayiş və mitinqlərdə əhali keçmiş sovet rəhbərliyindən və onun respublikamızdakı təmsilçilərindən ermənilərin qanunsuz hərəkətlərinə son qoyulmasını, münaqişənin ideoloqlarının və icraçılarının cəzalandırılmasını tələb edirdi. Ancaq ittifaq rəhbərliyi ermənipərəst mövqedə dayanaraq, müxtəlif vasitələrlə onların müdafiəsinə qalxırdı. Azərbaycanlılar zorla öz doğma yurdlarından qovulur, evləri vəhşicəsinə dağıdılır və ya zorla əllərindən alınır, özləri isə ən ağır təhqirlərə, işgəncə və qətllərə məruz qalırdılar. Həmin dövrdə respublikamızda ictimai-siyasi vəziyyəti ağırlaşdıran amillərdən biri də ölkə rəhbərliyində təmsil olunan şəxslərin səriştəsizliyi idi.

Respublikada yaranmış özbaşınalıq və hərc-mərclikdən məharətlə istifadə edən SSRİ-nin xüsusi xidmət orqanlarının əməkdaşları 1990-cı il yanvarın əvvəllərində yerlərdəki emissarlarının köməyi ilə Bakıda müxtəlif iğtişaşlar törətdilər. Azərbaycanı informasiya blokadasına almışdılar. Dəhşətli faciədən bir az öncə Azərbaycan Televiziyasının enerji bloku partladıldı. Radio və televiziyanın fəaliyyəti dayandırıldı, qəzetlər nəşr edilmədi. Dünya ictimaiyyəti Azərbaycanda baş vermiş bu qanlı hadisədən xəbərsiz idi. Belə ağır və müsibətli bir vaxtda xalqımızın vətənpərvər oğlu, Ulu Öndər Heydər Əliyev Moskvada xüsusi nəzarət altında saxlanılmasına, təzyiq və təqiblərə məruz qalmasına baxmayaraq, yanvarın 21-də oğlu cənab İlham Əliyevlə birgə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək, sovet ordusunun Bakıda törətdiyi bu qanlı cinayəti kəskin pisləyən bəyanat verdi. Zəngin dövləti idarəetmə təcrübəsinə malik olan Ulu Öndər bununla da Azərbaycan xalqına qarşı törədilmiş haqsızlığı dünya səviyyəsində rəsmiləşdirdi, faciənin bütün günahkarlarının cəzalandırılmasını tələb etdi. Həmin gün Ümummilli Lider Azərbaycan KP MK-ya, Respublikanın Ali Soveti və Nazirlər Sovetinə teleqram göndərdi. Bununla Ulu Öndər bütün dünya qarşısında 1990-cı il 20 Yanvar faciəsinə verilən ilk siyasi qiymətin təməlini qoydu. Ulu Öndər Heydər Əliyev və cənab İlham Əliyev bununla da Vətən, xalq qarşısında vətəndaşlıq və milli mövqe nümayiş etdirdilər...










Dövləti idarəetmə təcrübəsinə malik olan Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra 20 Yanvar hadisələrinin lazımınca dəyərləndirilməsi istiqamətində ciddi addımlar atıldı. Hələ 1990-cı il noyabrın 21-də böyük siyasi xadim Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsi ilə bağlı tarixi qərar qəbul etmişdi. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyə gəlişindən sonra isə bu faciəyə hüquqi qiymət verildi.

Ulu Öndər 1993-cü ilin iyununda Azərbaycanda hakimiyyətə qayıdışının ilk günlərində Şəhidlər xiyabanını ziyarət etdi. Elə yerindəcə tapşırıq verdi ki, qısa müddətdə bütün şəhid məzarlarının üstü layiqincə götürülsün və burada memorial kompleks ucaldılsın. Bunun üçün dövlət səviyyəsində lazımi vəsait ayrıldı və bu iş qısa zamanda başa çatdırıldı. Ulu Öndərin sərəncamı ilə 20 Yanvar Ümumxalq Hüzn Günü elan olundu.

Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva da Vətənimizin azadlığı, ərazi bütövlüyü uğrunda şəhid olanların, müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini əsas vəzifələrdən biri kimi qarşıya qoyub. Bu, Azərbaycan torpaqlarının 30 illik erməni işğalına son qoyan İkinci Qarabağ savaşından sonra daha çox müşahidə edilməkdədir. Ölkəmizdə bu istiqamətdə böyük tədbirlər həyata keçirilir, şəhid ailələrinin, əlillərin sosial təminatı daha da möhkəmləndirilir. Ölkədə əlil və şəhid ailələrinin mənzil təminatını yaxşılaşdırmaq üçün dövlət hesabına tikilən fərdi və yaşayış evlərinin sayı ildən-ilə artır.

Xeyirxahlıq missiyası ilə dünyanın diqqət mərkəzində olan Heydər Əliyev Fondu 20 Yanvar şəhidlərinin ailələrinə və əlillərin problemlərinə daim böyük qayğı ilə yanaşıb. Fondun dəstəyi ilə 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, faciə qurbanları ailələrinin problemlərinin həlli, sağlamlığının bərpası istiqamətində mühüm işlər görülüb. Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri Leyla xanım Əliyevanın da bu istiqamətdə həyata keçirdiyi tədbirlər yüksək dəyərlərə malikdir. Məhz onun təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən Qarabağ münaqişəsi, xalqımızın qanlı tarixi 20 Yanvarla bağlı kitablar, bukletlər, albomlar nəşr olunub, filmlər çəkilib.

COVID-19 pandemiyasının qayda və tələbləri çərçivəsində bir neçə gündür ki, respublikamızın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı görüşlər, konfrans və toplantılar keçirilir, mühazirələr söylənilir, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşalar göstərilir, bədii və sənədli filmlər nümayiş etdirilir, bu tədbirlər kütləvi informasiya vasitələrində geniş işıqlandırılır. Respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərslər keçirilir, xalqımızın qəhrəmanlıq tarixinə çevrilmiş 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardımlar verilir, Azərbaycandakı əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə dini mərasimlər təşkil edilir.

Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, diaspor qurumları və icmaları vasitəsilə müvafiq tədbirlər keçirilir, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materiallar genişliyi ilə gündəmə gətirilir.

O qanlı şənbə gecəsində azadlıq və müstəqillik uğrunda mübarizəyə qalxan dinc əhaliyə tutulan amansız divanı xalq heç vaxt unutmur. Hər il dinindən və irqindən asılı olmayaraq on minlərlə Azərbaycan vətəndaşı, ölkəmizdə səfərdə olan xarici ölkə başçıları, turistlər və qonaqlar Bakının ən uca yerində - hamımız üçün müqəddəs sayılan, xalqımızın qəhrəmanlıq tarixini özündə yaşadan Şəhidlər xiyabanına gəlir, müstəqillik uğrunda sinələrini sipər etmiş xalqımızın mərd oğul və qızlarını böyük ehtiramla yad edir, məzarları önünə tər gül dəstələri düzürlər.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Milli Olimpiya Komitəsi “Pekin-2022” Qış Olimpiya Oyunlarına həsr olunan rəsmi təqdimat mərasimi təşkil edib






Yanvarın 18-də Azərbaycan Milli Olimpiya Komitəsi (MOK) “Pekin-2022” Qış Olimpiya Oyunlarına həsr olunan rəsmi təqdimat mərasimi təşkil edib.

AZƏRTAC xəbər verir ki, tədbirdə MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, baş katib Azər Əliyev, Çinin Azərbaycandakı səfiri xanım Qo Min, Olimpiya çempionları və Azərbaycanın idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

MOK-un vitse-prezidenti Ç.Hüseynzadə çıxışında bildirib ki, Azərbaycan “Pekin-2022”də fərdi fiqurlu konkisürmə idman növündə iki idmançı ilə təmsil olunacaq. Dördilliyin zirvə yarışında idmançılarımızdan Yekaterina Ryabova və Vladimir Litvintsev mübarizə aparacaqlar. “Pxençan-2018” Qış Olimpiya Oyunlarında ölkəmiz cəmi bir idmançı ilə dağ xizəyi yarışında təmsil olunmuşdu. Fevralın 4-20-də keçiriləcək Qış Olimpiya Oyunlarında Azərbaycan nümayəndə heyəti 10 nəfərdən artıq olacaq.

Ç.Hüseynzadə “Pekin-2022” Qış Olimpiya Oyunlarında Azərbaycan komandasının bayraqdarının adını da açıqlayıb. O, bayraqdarın Vladimir Litvintsev olacağını bildirib. MOK rəsmisi həm təşkilatçılara, həm də iştirakçılara uğurlar və təhlükəsiz yarış arzulayıb.

Sonra Estoniyada keçirilən Avropa çempionatında iştirak etdikləri üçün bu tədbirə qatıla bilməyən Yekaterina Ryabova və Vladimir Litvintsevin videomüraciətləri nümayiş olunub.

Çinin Azərbaycandakı səfiri xanım Qo Min mərasimin yüksək səviyyədə təşkilinə görə MOK rəhbərliyinə təşəkkür edib. “Azərbaycan Cənubi Qafqazın idman ölkəsidir”, - deyən xanım səfir bunun Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi diqqəti və dəstəyi sayəsində mümkün olduğunu qeyd edib. Diplomat bildirib: “Məhz Prezident İlham Əliyevin sayəsində Azərbaycanda idman sürətlə inkişaf edir və atletləriniz beynəlxalq arenalarda yüksək nailiyyətlər qazanırlar”.

“Çin dünyaya möhtəşəm, eksklüziv və qeyri-adi Olimpiya Oyunları bəxş etməyi beynəlxalq ictimaiyyət qarşısında özünə borc bilir”, - deyən Q.Min “Birlikdə birgə gələcək naminə” şüarı altında keçiriləcək Qış Olimpiya Oyunlarında idmançılara və iştirakçılara uğurlar arzulayıb.

MOK-un “Pekin-2022” Qış Olimpiya Oyunlarına həsr olunan təqdimat mərasimi Azərbaycan milli komandasının rəsmi formasının nümayişi ilə başa çatıb. Milli-mənəvi dəyərlərimizin rəmzlərini əks etdirən geyim dəstində qış fəslinin ruhu və rəngləri təcəssüm olunub. Geyimləri tanınmış aparıcılar Afaq Gəncəli və Tural Əsədov təqdim ediblər.

# “Azərbaycan Hava Yolları” yeni “Azal Club” loyallıq proqramını təqdim edir

Azərbaycanın milli aviadaşıyıcısı - AZAL yeni “Azal Club” loyallıq proqramını tətbiq edir.




“Azərbaycan Hava Yolları” QSC-nin Mətbuat xidməti məlumat verir ki, “Azal Club” pərakəndə satış mağazaları şəbəkəsində alış-veriş zamanı, həmçinin müxtəlif növ xidmət mərkəzlərində bonus millərini toplamağa imkan verən pulsuz virtual loyallıq kartıdır.

Tərəfdaşlar şəbəkəsinə həmçinin məşhur restoranlar, mehmanxanalar, geyim, aksessuar və ətriyyat mağazaları, əyləncə mərkəzləri,”Booking.com”, “Rentalcars.com” və digər müxtəlif onlayn saytlardan təkliflər daxildir. Perspektivdə “Azal Club” tərəfdaşlıq şəbəkəsinin coğrafiyasını genişləndirəcək, buraya”Azərbaycan Hava Yolları”nın müntəzəm reyslər yerinə yetirdiyi şəhər və ölkələrdəki müxtəlif tərəfdaşlar da cəlb ediləcək.

Yeni loyallıq proqramı çərçivəsində toplanan milləri Azərbaycan aviadaşıyıcılarının - AZAL və “Buta Airways” aviaşirkətlərinin biletlərinə dəyişmək mümkün olacaq.

Bonus millərini aviabiletə dəyişərkən komissiya tutulmayacaq, həmçinin vergi, yığım tətbiq olunmayacaq və bilet alışı zamanı yerlərlə məhdudlaşmayacaq. Həmçinin “Azal Club” istifadəçiləri qazandıqları bonus millərini tətbiqdə birbaşa AZAL-Miles iştirakçısının hesabına köçürə və ya bonus millərini müxtəlif mal və xidmətlərə dəyişə biləcəklər.

AZAL proqramın tərəfdaş şəbəkəsinə qoşulmaq arzusunda olanları dəvət edir. “Azal Club” tərəfdaş brendinin davamlı marketinq dəstəyini və irəliləyişini təmin edəcək. Qeyd etmək lazımdır ki, AZAL-Miles proqramının 200 mindən çox istifadəçisi artıq potensial müştəri bazasının bir hissəsidir. Tərəfdaş şəbəkəsinə qoşulmaq üçün partner@azalclub.az elektron poçtuna ərizə göndərmək lazımdır.

“Azal Club” mobil əlavəsi vasitəsilə proqramda iştirakçı qismində qeydiyyatdan keçmək mümkündür. Yükləmək üçün keçidlər:

- Android: https://play.google.com/-store/apps/details?id=az.azalclub
- Apple iOS: https://apps.apple.com-/az/app/azal-club/id1459851221

Burada iştirakçılar cari balansı izləyə, həmçinin tərəfdaşların tam siyahısı, onların təqdim etdikləri kampaniyalar və təkliflərlə tanış ola biləcəklər.

“Azal Club” proqramı haqqında daha ətraflı məlumat almaq üçün *2002 telefon nömrəsi, support@azalclub.az elektron poçtu və ya www.azalclub.az rəsmi saytı vasitəsilə müraciət edin.

“Azal Club” proqramı nədir və necə çalışır? Bu haqda hazırlanan tanıtım çarxını linkə daxil olaraq izləyə bilərsiniz: **https://youtu.be/LT1bwSvWYik**

# Xarici ölkələrdə qanunsuz silahlı birləşmələrə qoşulan şəxslər məsuliyyətə cəlb ediliblər

Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) ölkə hüdudlarından kənarda qanunsuz silahlı birləşmələrin fəaliyyətində iştirak edən şəxslərlə bağlı əməliyyat-istintaq tədbirləri davam etdirilir.

AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən aparılmış araşdırmalar nəticəsində Azərbaycan Respublikasının vətəndaşları - 1976-cı il təvəllüdlü Hüseynov Seymur Əliş oğlunun və 1970-ci il təvəllüdlü Novruzbəyov Elxan Əmənulla oğlunun ölkəni tərk edib əvvəlcə İran İslam Respublikasının Tehran şəhərinə, oradan isə qanunsuz silahlı birləşmələrin tərkibinə daxil olmaq üçün qeyri-leqal yolla digər xarici dövlətlərin ərazisinə keçərək cinayətkar dəstələrə qoşulmaqla onların tərkibində döyüş təlimlərində və silahlı münaqişələrdə iştirakına dair əsaslı şübhələr müəyyən edilib.

İstintaq müddətində məlum olub ki, S.Hüseynov “Abuzər” ləqəbli şəxsin, E.Novruzbəyov isə Qasımov Vüsal Qəzənfəroviçin rəhbərlik etdiyi, qanunvericiliklə nəzərdə tutulmayan qanunsuz silahlı birləşmələrin tərkibinə daxil olublar.

Faktla bağlı DTX-də istintaqı aparılan cinayət işi üzrə hər iki şəxs Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1, 279.1-ci (Azərbaycan Respublikasından kənarda qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin fəaliyyətində iştirak etmə) maddəsi ilə təqsirli bilinərək məsuliyyətə cəlb olunub.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az


# OXUCULARIN NƏZƏRİNƏ!
# “AZƏRBAYCAN”

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Ötən il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və qurumlarında 566,3 minədək vətəndaş qəbul edilib

## Yazılı və e-qaydada, Çağrı Mərkəzi ilə edilmiş 1,4 milyondan çox vətəndaş müraciəti cavablandırılıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və qurumları tərəfindən ötən il 566 288 vətəndaşın qəbulu həyata keçirilib.

Onlardan 3580-i nazirliyin və qurumlarının rəhbər vəzifəli şəxsləri tərəfindən (videoformatda), 562 708-i nazirliyin və qurumlarının qəbul mərkəzlərində, habelə DOST mərkəzlərində qəbul edilib.

Eyni zamanda, ötən il 1 412 491 vətəndaş müraciəti (o cümlədən nazirlik və qurumları tərəfindən 427 979 və 142 Çağrı Mərkəzi vasitəsilə 899 354, sosial şəbəkələr üzərindən 85 158 müraciət) cavablandırılıb.

Hər bir müraciətin qanunvericiliyin tələblərinə uyğun şəkildə araşdırılaraq cavablandırılması, müraciətlərdə əksini tapan məsələlərlə əlaqədar aidiyyəti tədbirlərin görülməsi təmin olunub.

# Dünyanın koronavirus bəlası

## İşsizlik və işçi çatışmazlığı, Çində yeni qaydalar və yaşlı yunanlar üçün cərimələr...

*Əvvəli 1-ci səh.*

### Çində yeni yoluxma sayı iki ilin maksimumuna çatıb

Çində koronavirusa yeni yoluxma hallarının sayı iki ilin maksimumuna çatıb və hakimiyyət orqanları insanları xaricdən mal idxal etməməyə çağırır. Pekinin Xəstəliklərə Nəzarət Mərkəzinin əməkdaşları belə qənaətə gəliblər ki, şəhər sakinlərindən biri bağlamanı açdıqdan sonra “Omikron” variantına yoluxub.

Rəsmilər dondurulmuş ərzaqların idxalı zamanı koronavirusun dövlətlər arasında səyahət edə biləcəyini də bildiriblər. Ancaq bir çox alimlər bu nəzəriyyəni şübhə altına alırlar.

Pekindəki bir qadının son zamanlar şəhəri tərk etməməsinə baxmayaraq, “Omikron” ştamına verdiyi testin cavabı müsbət çıxıb. Hələlik o, COVID-19-un bu yüksək yoluxucu variantının tapıldığı yeganə şəhər sakinidir.

Mərkəzin əməkdaşlarının dediyinə görə, virusun izləri digər ölkələrdən gələn bağlamalarda aşkar edilib. Çin xaricindən gələn bağlamalar yeni qaydalara əsasən küçədə, əlcəklərdə açılmalı və qabları dərhal tullanmalıdır.

### Yeni səyahət qaydaları

Bazar ertəsi Çində Yeni il bayramı mövsümü start götürüb - Ay təqviminə əsasən ölkədə yeni il fevralın 1-də başlayır. Bu günlərdə adətən yüz milyonlarla insan səyahət edir. Bir neçə şəhər COVID-19-un yayılması ilə əlaqədar olaraq təhlükə səviyyəsini qaldırıb: səyahət edənlər şəhərlərə gəlməmişdən bir neçə gün əvvəl səfər barədə məlumat verməlidirlər.

Ötən həftəsonu Pekində və Şenzjendə “Omikron” ştamına 2 yoluxma halı qeydə alınıb.

Yüksək peyvəndlənmə səviyyəsinə baxmayaraq (86 faizdən çox), Çin hələ də virusun aşkarlandığı yerlərdə ciddi karantinlər tətbiq etməklə “sıfır yoluxma” siyasətinə sadiq qalır. Bu strategiya fevralın 4-də Pekində və qonşu Hebey əyalətində başlanacaq Qış Olimpiya Oyunları ərəfəsində xüsusi aktuallıq qazanıb.

Bazar ertəsi Çin Pekin Qış Olimpiya Oyunlarına bilet satışı planlarını ləğv edib. Yarışları izləmək yalnız dəvət əsasında mümkün olacaq.



### Avropaya yenidən qrip gəlib

Keçən il Avropada mövsümi qripə yoluxma halı çox aşağı idi, lakin bu qış xəstəlik Avropaya qayıdıb, özü də gözləniləndən daha tez. Bu isə koronavirus pandemiyası ilə qripin üst-üstə düşməsi ilə bağlı narahatlıqlara səbəb olub.

Avropa İttifaqının məlumatına görə, COVID-19-a görə tibbi maskalardan istifadə, sosial məsafənin gözlənilməsi və özünütəcrid hər il bütün dünyada 650 min nəfərə yaxın insanı öldürən qrip virusunun ötən qış yayılmasına imkan verməyib. Ancaq vaksinasiya genişləndikcə, hakimiyyət məhdudiyyətləri zəiflədir və bu, qripin yayılmasına rəvac verir.

Avropa Xəstəliklərin Qarşısının Alınması və Nəzarəti üzrə Mərkəzi bildirir ki, dekabrın ortalarından etibarən qrip virusları gözləniləndən daha sürətli yayılır.

Mərkəzin baş eksperti Pasi Penttinen hesab edir ki, avropalılar yayadək uzanan qeyri-adi qrip mövsümünü gözləməlidirlər.

Vəziyyəti çətinləşdirən odur ki, bu il dövr edən qripin dominant ştamı A virusunun H3 variantıdır. Bu ştam xüsusilə yaşlı insanlarda ağır fəsadlar yaradır.

### Koronavirus məşğulluğu “vurur”

COVID-19 bütün dünyada iş yerlərinə ciddi şəkildə təsir göstərməyə davam edir. Bu barədə məlumat verən Birləşmiş Millətlər Təşkilatı məşğulluq səviyyəsinin bərpası üçün illər lazım olduğunu bildirib.

Yeni tədqiqatda BMT Beynəlxalq Əmək Təşkilatı özünün əvvəlki “dünya əmək bazarı artıq bu il pandemiyadan sonra, demək olar ki, tamamilə bərpa olunacaq” proqnozuna yenidən baxıb.

BƏT- in rəhbəri Qay Rayder jurnalistlərə bildirib ki, qlobal əmək bazarları böhrandan sonra gözlənildiyindən xeyli ləng bərpa olunur: “Biz artıq yoxsulluğun və bərabərsizliyin artması ilə yanaşı, əmək bazarına potensial uzunmüddətli ziyan görürük”. Hesabatda 2019-cu illə müqayisədə dünyadakı əmək günlərinin sayının iki faiz azalacağı proqnozlaşdırılır ki, bu da təxminən 52 milyon iş yerinin ixtisarına bərabərdir.

Eyni zamanda, dünyada işsizliyin rəsmi səviyyəsi pandemiyanın başlanmasından əvvəlki dövrlə müqayisədə xeyli yüksək olaraq qalır.

Bu il dünyada işçilərin 5,9 faizinin və ya təxminən 207 milyon insanın işsiz kimi rəsmi olaraq qeydiyyatdan keçəcəyi gözlənilir. Bu, əvvəlki iki ilin göstəricilərindən azdır, lakin 2019-cu ildə qeydə alınmış 186 milyondan çoxdur.

BƏT-in hesabatında deyilir ki, qlobal işsizlik səviyyəsi, ən azı 2023-cü ilə qədər böhrandan əvvəlki səviyyədən 5,4 faiz yuxarı olacaq.

Məşğulluğa ümumi təsir isə bu rəqəmlərin nəzərdə tutulduğundan xeyli çoxdur, çünki bir çox insanlar, ümumiyyətlə, işləmirlər.

Hesabatda həmçinin qeyd olunur ki, vaksinə əlçatanlıq və iqtisadiyyatın bərpası tədbirlərində fərqlər böhranın müxtəlif işçi qruplarına və müxtəlif ölkələrə fərqli təsir göstərdiyini bildirir.

Rayder deyib ki, daha yüksək gəlir səviyyəsinə malik olan ölkələrdə əmək bazarları daha sürətli bərpa olunur, baxmayaraq ki, bəziləri indi işçi qüvvəsi çatışmazlığı ilə bağlı problemlərlə üzləşməyə başlayıb. Bu ölkələr sırasında bəzi sahələrdə kadr çatışmazlığının hiss olunduğu Böyük Britaniya da var.

### Vaksin almayan yaşlı yunanlar cərimələnir

Koronavirusdan peyvənd edilməmiş altmış və yuxarı yaşlı yunanlar bazar ertəsindən hər ay 100 avro cərimə olunmaq riski ilə üzləşiblər.

Yunanıstan hökuməti bu cərimələrin pensiya və ya maaşlardan çıxılmayacağını bəyan edib. Tibbi göstəricilərə görə, vaksinasiyadan keçə bilməyən insanlar da cərimədən azad edilirlər.

Bu şəkildə toplanan pullar səhiyyə sisteminin dəstəklənməsinə yönəldiləcək.

Yunanıstanda əhalinin üçdə iki hissəsi tamamilə vaksinləşdirilib ki, bu da Avropa İttifaqı üzrə orta göstəricidən bir qədər aşağıdır.

***Rizvan HİLALOĞLU,***
***“Azərbaycan”***

**ALLAH RƏHMƏT ELƏSİN!**

Təlatüm Quliyev ailəsi ilə birlikdə Maqsud Əsədova və Elsevər Quliyevə əzizləri

**MİNƏVVƏR ƏSƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Memarlar İttifaqının İdarə Heyəti Memarlar İttifaqının üzvü

**İSMAYIL CƏFƏR OĞLU İSMAYILLININ**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 4947
Sifariş 140
Qiyməti 40 qəpik